

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

21 iyul 2026-cı il, çərşənbə axşamı
№ 126 (7193)
Qiymәti 60 qəpik


## Yeni transkontinental nizamda Bakının geostrateji əhəmiyyəti...



## Şuşa Qlobal Media Forumu Azərbaycanın orta güc statusunu bir daha təsdiqlədi

➪ Bax səh. 3



## Azərbaycan Prezidenti Almaniyada rəsmi səfərdədir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də, axşam radələrində Almaniya Federativ Respublikasına rəsmi səfərə gəlib. AZƏRTAC xəbər verir ki, Berlin şəhərinin Brandenburq "Willy Brandt" Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Prezidentini rəsmi şəxslər qarşıladılar.**

## Xalq-dövlət birliyi heç vaxt sarsılmamalıdır!

### İlham Əliyev: Ancaq özümüzə və dövlətə güvənməliyik

➪ Bax səh. 2

## Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlıq güclənir

Azərbaycan ilə Özbəkistan arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 15-ci iclasında iştirak üçün bu ölkədə işgüzar səfərdə olan iqtisadiyyat naziri Mikayıl Cabbarovun görüşləri mühüm əlamətdar hadisələrlə yadda qalıb. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən qəbul edilən nazirə ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin mövcud dinamik vəziyyəti xatırladılıb. Özbəkistanın dövlət başçısı münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini, strateji tərəfdaşlığın daha da dərinləşdirilməsi üçün möhkəm zəmin formalaşdığını vurğulayıb. Tərəflər iki ölkə arasında iqtisadi əməkdaşlığın şaxələndirilməsi, qarşılıqlı ticarət və investisiya təşəbbüslərinin təşviqi, biznes əlaqələrinin gücləndirilməsi və digər istiqamətlər üzrə tərəfdaşlığın genişləndirilməsi barədə fikir mübadiləsi aparıblar.

İqtisadiyyat nazirinin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin Özbəkistanın müvafiq iqtisadi strukturları ilə görüşlərində də ikitərəfli əlaqələrin daha da artırılması barədə qarşılıqlı məsləhətləşmələr aparılıb. Azərbaycan ilə Özbəkistan arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 15-ci iclasında iqtisadiyyatın müxtəlif bölmələri barədə birgə əməkdaşlığın müasir vəziyyəti nəzərdən keçirilib. Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Laziz Kudratov bildirib ki, ikitərəfli iqtisadi münasibətlər son illərdə daha da inkişaf edib və və inkişaf perspektivləri üçün əlverişli imkanlar mövcuddur. Bu isə birgə istehsal və sənaye zəncirləri...

➪ Bax səh. 5



➪ Bax səh. 4

## Çin Kommunist Partiyasının nümayəndə heyəti ölkəmizdə səfərdədir

## Altı ölümün öldürdüyü tək adam

➪ Bax səh. 7

## Qazaxdan Şuşaya uzanan söz bayramı...

➪ Bax səh. 8

## Yeni proqram...

Azərbaycan UNESCO-da inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Dünya İrsi obyektlərinin mühafizəsi sahəsində potensialının gücləndirilməsi üzrə proqram təqdim edib və təşkilatın Afrika strategiyasının həyata keçirilməsini dəstəkləməyə hazır olduğunu təsdiqləyib.

Bu barədə Azərbaycanın UNESCO yanındakı daimi nümayəndəsi Elman Abdullayev Cənubi Koreyanın Busan şəhərində Dünya İrs Komitəsinin 48-ci sessiyasında milli bəyanatla çıxış edərkən bildirib.

Onun sözlərinə görə, "Azərbaycan-SIDS Dünya İrsi Potensialının Gücləndirilməsi" proqramı ada dövlətlərinin institusional potensialının gücləndirilməsini, mütəxəssislərin hazırlanmasını və obyektlərin gələcəkdə Ümumdünya İrsi Siyahısına daxil edilməsi üçün irəli sürülməsinə dəstək göstərilməsini nəzərdə tutur.

Azərbaycan, həmçinin, Afrika üçün Ümumdünya İrsi Strategiyasının və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə münasibətdə UNESCO strategiyasının həyata keçirilməsinə kömək etmək niyyətini təsdiqləyib.

E.Abdullayev öz çıxışında vurğulayıb ki, ölkə 1972-ci il Dünya Mədəni və Təbii İrsin Mühafizəsi haqqında Konvensiyanın yerinə yetirilməsinə sadiqdir və Ümumdünya İrsi Mərkəzi ilə əməkdaşlığı davam etdirəcək.

O qeyd edib ki, bu yaxınlarda qəbul edilmiş "Azərbaycan mədəniyyəti - 2040" konsepsiyası mədəni irsin idarə olunması sisteminin təkmilləşdirilməsi, irs obyektlərinin sənədləşdirilməsi, hüquqi mühafizəsinin gücləndirilməsi və tarixi abidələrin bərpası istiqamətində uzunmüddətli strateji çərçivə müəyyən edir.

Diplomatın sözlərinə görə, 30 illik işğaldan sonra azad edilmiş ölkə ərazilərinin bir hissəsində davam edən mina təhlükəsinə baxmayaraq, Azərbaycan mədəni irs obyektlərinin...

➪ Bax səh. 5



## Yaponiya 10-cu olacaqmı?

➪ Bax səh. 7



## Fransanın yeni prezidenti kim olacaq?

➪ Bax səh. 6

# İlham Əliyev Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harms ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Berlində Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harms ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan və alman iş adamlarının, həmçinin şirkətlərinin birgə fəaliyyətə marağının artdığı vurğulanaraq, bu cür fəaliyyətin institutlaşdırılması yolları müzakirə edildi.

Ənənəvi və alternativ energetika üzrə mövcud potensial, Orta Dəhliz daxil olmaqla bağlantı, nəqliyyat və logistika sahələrində imkanlar barədə fikir mübadiləsi aparıldı.

Azərbaycanda kənd təsərrüfatı ilə bağlı dövlət proqramının qəbul olunduğu xatırlanaraq, Almaniyanın bu sahədə aparıcı texnologiyalarının ölkəmizdə tətbiqi imkanlarına toxunuldu, o cümlədən "ağıllı kənd təsərrüfatı" istiqamətində əməkdaşlığın perspektivləri qeyd edildi.

Söhbət zamanı, həmçinin ölkəmizin turizm potensialından istifadə olunmasına və qarşılıqlı maraq doğuran digər mövzulara dair fikir mübadiləsi aparıldı.



# "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

**1.** "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" (bundan sonra - Tədbirlər Planı) təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

2.1. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**3.** Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsini Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 iyul 2026-cı il***

# Xalq-dövlət birliyi heç vaxt sarsılmamalıdır!

## İlham Əliyev: Ancaq özümüzə və dövlətə güvənməliyik

**Bu günlərdə uğurla başa çatan IV Şuşa Qlobal Media Forumu artıq tarix olsa da, onunla bağlı təəssüratlar, tədbirdə ifadə olunan fikirlər və irəli sürülən təşəbbüslər hələ uzun müddət bundan sonra da müzakirə mövzusu olaraq qalacaq. Forumu əlamətdar edən ən mühüm amil isə, heç şübhəsiz ki, Prezident İlham Əliyevin sualları cavablandırarkən Azərbaycan cəmiyyətinə və dünya ictimaiyyətinə mühüm mesajlar verməsi oldu. Bu mesajlar həm ölkə, həm də qlobal gündəliyə aiddir və yaranan yeni çağırışlarla adekvatlıq təşkil edir. Dövlətimizin başçısı cavablarında, həmçinin Azərbaycandakı dünyada analoqu olmayan həmrəylik mühiti ilə bağlı məmnunluğunu ifadə edərək gələcəklə bağlı Özünün dəyərli tövsiyələrini verib.**

### Azərbaycan xalqına xüsusi hörmətin növbəti ifadəsi

Şuşa Qlobal Media Forumunda jurnalist Prezident İlham Əliyevdən dünya və Azərbaycan ictimaiyyətinə hansı müraciətlə üz tuta biləcəyini soruşur. Prezident İlham Əliyev isə özünə xas olan təvazökarlıqla diqqətə çatdırır ki, Onun müraciəti ancaq Azərbaycan xalqına ola bilər. Bu, dövlətimizin başçısının Azərbaycan xalqına xüsusi hörmətinin və ehtiramının növbəti ifadəsidir. Dövlətimizin başçısı 2003-cü ildən etibarən məhz xalqın dəstəyini qazanmaqla prezident seçkilərinin dəyişməz qalibi olub. O, Prezident kimi öz dayaqlarını hansısa dairələrdə, güc mərkəzlərində axtarmır. İlham Əliyevin güvəndiyi yeganə dayaq Azərbaycan xalqıdır və cəmiyyətin verdiyi sosial sifarişlər Onun ali kürsüdə fəaliyyətinin əsas istiqamətlərinin formalaşmasında mühüm rol oynayır. Prezident İlham Əliyev dövlət başçısı kimi çalışdığı 23 ilə yaxın müddət ərzində hər zaman ölkə üçün zamanın tələbinə uyğun ümummilli ideyalar müəyyənləşdirib və çox sevdiyi xalqı da bu ideyalar ətrafında səfərbər etməyi bacarıb. Ötən 23 ili mahiyyət etibarı ilə üç mərhələyə bölə bilərik: İşğal dövrü, İkinci Qarabağ müharibəsi günləri və postmüharibə mərhələsi. Hər üç mərhələnin çağırışları bir-birindən fərqlənir. İlham Əliyevin böyüklüyü və müdrikliyi ondadır ki, O, ölkə siyasətinin istiqamətlərini müəyyənləşdirərkən hər mərhələnin çağırışlarının prioritetliyini önə çəkməyi və milli gücü həmin çağırışlar ətrafında konsolidasiya etməyi bacarıb. Hər üç mərhələdə Prezident İlham Əliyev Onun fəaliyyətini səciyyələndirən dörd qızıl qaydaya əməl etməklə mühüm qərarlar verib. Bunlar aşağıdakılardır:

-Vaxtı düzgün seçmək: Hər bir qərarın və addımın reallaşması üçün ən optimal zamanı dəqiqləşdirmək.

-Avantüraya getməmək: Riskli, təhlükəli və əsaslandırılmamış hərbi və ya siyasi macəralardan qaçmaq.

- Ölkəni risk altına salmamaq: Dövlətin və xalqın təhlükəsizliyini qorumaq, manevr imkanlarını qoruyub saxlamaq.

-Maksimum uğura nail olmaq: Hərəkətlərin yekununda Azərbaycanın milli maraqlarına tam cavab verən ən yüksək nəticəni əldə etmək.



### Fərqli dövrlər, fərqli müraciətlər

Prezident İlham Əliyev Şuşa Qlobal Media Forumunda fərqli dövrlərdə Azərbaycan xalqına etdiyi fərqli müraciətləri xatırladıb. İşğal dövründə Onun müəyyənləşdirdiyi əsas ümummilli ideya ölkənin ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi ilə bağlı idi. Ayrı-ayrı beynəlxalq təşkilatlar, bəzi güc mərkəzləri Azərbaycana təzyiq göstərməklə keçmiş status kvonun sonsuzluğadək saxlanmasına nail olmağa çalışırdılar. Bizə işğalla barışmağı təlqin edirdilər, bildirirdilər ki, münaqişənin güc yolu ilə həllinə cəhd göstərmək əbəsdir.
İlham Əliyev isə xalqa müraciətlərində cəmiyyətimizə inam aşılayırdı ki, biz torpaqlarımızı mütləq işğaldan azad edəcəyik, qaçqın və məcburi köçkün soydaşlarımızı mütləq öz dədə-baba yurdlarına qaytaracağıq. Prezident İlham Əliyev bu vədləri verməklə yanaşı, həm də ölkəni gücləndirdi, qarşıda duran istənilən vəzifəni yerinə yetirməyə qadir olan müasir Ordu formalaşdırmağa nail oldu. Elə bir Ordu ki, cəmi 44 gün ərzində düşməni kapitulyasiyaya məruz qoydu, 300-dən çox yaşayış məntəqəsini bilavasitə döyüş meydanında işğalçılardan təmizlədi.

Vətən müharibəsi dövründə Prezident İlham Əliyevin xalqa müraciətləri həm qələbə əhval-ruhiyyəli idi, həm də cəmiyyəti daha sıx birliyə səsləyirdi. Bu müraciətlərə cavab olaraq Azərbaycan cəmiyyəti bir yumruq kimi Ordu və Prezident ətrafında birləşdi. Müharibənin ilk günlərindən 50 siyasi partiyanın bəyanat imzalayaraq ölkəmizin ərazi bütövlüyünün təmin olunması məsələsində Ali Baş Komandanımızın qətiyyətli siyasətini dəstəkləməsi çox mühüm əhəmiyyətə malikdir. Xatırladaq ki, 2020-ci il oktyabrın 3-də 50 siyasi partiya rəhbərinin iştirakı ilə "Milli həmrəylik - siyasi dialoqun nəticəsi" adlı videokonfrans formatında görüş keçirilib və müzakirələr aparılıb. Oktyabrın 17-də isə Azərbaycanda fəaliyyət göstərən 50 siyasi partiya beynəlxalq və regional təşkilatlara müraciət ünvanlayıb. Bəhs olunan müraciətdə Ermənistanın son 30 ildə silahlanmasının regional və beynəlxalq təhlükəsizliyi ciddi şəkildə təhdid etdiyi diqqətə çatdırılıb, bu silahlanmanın əsasən, Azərbaycana qarşı yönəldiyi və yeni ərazilərin işğal edilməsi ilə bağlı olduğu vurğulanıb. Bu birlik möhtəşəm qələbələrimizin qazanılmasında mühüm rol oynadı.

Postmüharibə dönəmində Prezident İlham Əliyevin Azərbaycan xalqına müraciətləri quruculuqla, işğaldan azad olunmuş ərazilərin bərpası ilə bağlıdır. Müharibə başa çatandan sonra ermənilər və qələbələrimizi sinirə bilməyən dairələr iddia edirdilər ki, Azərbaycanın işğaldan azad etdiyi əraziləri bərpa etməyə gücü çatmayacaq və yaxud buna uzun zaman lazım gələcək. Qalib Azərbaycan isə Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında azad ərazilərin bərpasına müharibə başa çatandan dərhal sonra başladı. Güclü Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev 30 il məşəqqətli həyat yaşamış soydaşlarımızın yurd yerlərinə qayıdışını tez və ləyaqətli şəkildə təmin etmək əzmindədir. Yeni strateji mərhələdə Böyük Qayıdış Azərbaycanın 5 mühüm prioritetindən biri kimi müəyyənləşdirilib. Hazırda bu prioritetə uyğun olaraq azad ərazilərin məskunlaşdırılması uğurla davam etdirilir. Artıq bu yerlərdə təxminən 90 min insan yaşayır, çalışır və təhsil alır.

Azərbaycan bütün uğurlarına öz gücü ilə nail olub. Biz bundan sonra ölkəmizi daha qüdrətli etməliyik. Prezident İlham Əliyev Şuşadan xalqa çağırış edərək bildirib ki, ancaq özümüzə güvənməliyik və dövlətə güvənməliyik. "Birlik heç vaxt sarsılmamalıdır. Nə üçün mən bunu deyirəm? Bəlkə də bu gün bunu demək o qədər də məntiqli səslənməz. Çünki bu gün Azərbaycan cəmiyyətində olan birliyə oxşar mənzərə tapmaq da çətindir. Çünki bu, ürəkdən gələn, insanların zehnindən gələn bir birlikdir. Elə bil ki, iki çay birləşir bir yerə. Bax, odur bu birlik - həm qəlbən, həm də necə deyərlər, fikir olaraq.

Amma biz gələcəyə baxmalıyıq. Dünya dəyişir və bu barədə də danışmışıq. Yeni təhdidlər, yeni təxribatlar ortaya çıxır. Əgər kimsə fikirləşir ki, bizi istəməyən qüvvələr bizdən əl çəkəcək, olmayacaq, heç vaxt olmayacaq. Bu mübarizə daimi olmalıdır - mübarizə öz hüquqlarımızı qorumaq üçün, mübarizə öz milli kimliyimizi qorumaq üçün, öz müstəqilliyimizi öz əlimizdə saxlamaq üçün", deyə dövlətimizin başçısı vurğulayıb.

Dünyada dövlətlər fərqlidirlər. Bəzi dövlətlər öz problemlərini başqalarının köməyi ilə həll etməyə öyrəşiblər və başqa cür yaşamaq iqtidarında deyillər. Belə dövlətlər uğursuz dövlətlərdirlər və daim forpost kimi yaşamağa məhkumdurlar. Prezident İlham Əliyevin bildirdiyi kimi, onlar hər zaman böyük oyunların qurbanlarına çevrilirlər. Azərbaycan isə fərqli prizmadan diqqət çəkir. Ölkəmiz milli maraqlar üzərində qurulan tam müstəqil siyasi kurs həyata keçirir. Respublikamızın qərarları hansısa xarici paytaxtlarda deyil, məhz Bakıda, məhz Prezident İlham Əliyev tərəfindən verilir. Buna görə də Azərbaycan dünyada ləyaqətli dövlət kimi tanınır. Bu gün biz dünyada Azərbaycana və onun Liderinə beynəlxalq miqyasda necə böyük hörmət bəslənildiyinin şahidi oluruq. Respublikamız, necə deyərlər, dünyanın mərkəzinə çevrilib. Paytaxtımız tez-tez BMT-nin və digər nüfuzlu beynəlxalq təşkilatların mötəbər tədbirlərinə ev sahibliyi edir və bu tədbirlərdə dünya gündəliyinin aktual məsələlərinin müzakirələri aparılır.

Bütün bunlar bizim üçün qürur mənbəyi olmaqla yanaşı, məsuliyyətimizi də artırır. Ənənələri yaşatmaq, ölkəni daha güclü etmək indiki və gələcək nəsillərin üzərinə düşür. Prezident İlham Əliyev Şuşa Qlobal Media Forumunda gənclərə xitab edərək vurğulayıb: "Bizim xalqımız həm işğal görüb, həm dağıntılar görüb, həm Zəfər görüb, həm də bu gün bu bərpa və dirçəliş dövrünü həm görür, həm də bunun iştirakçısıdır. Ona görə bu sözlərim gələcək nəsillərə, gənc nəslədir ki, Azərbaycan xalqı əbədi, yəni qürurlu xalq kimi, qalib xalq kimi yaşasın, milli kimlik hər şeydən üstün olmalıdır, milli ləyaqət hər şeydən üstün olmalıdır. Məğlub ola bilərsən, - indi olur belə hadisələr, - amma gərək heç vaxt əyilməyəsən, sınmayasan. Heç vaxt işğalçı ilə razılaşmayasan, işğalçının diktəsi ilə oturub-durmamalısan. Lazım olsa, ölsən də belə, gərək ləyaqətlə yaşayasan və öz övladlarına, nəvələrinə, nəticələrinə bunu aşılayasan. Ona görə bizim gələcək inkişafımız gənc nəslə bağlı olacaq, təqribən 20 il, 30 il, 50 il sonra. Onlar da bizim kimi Vətənə bağlı, mətin, iradəli, güclü olmalıdırlar ki, Azərbaycan daim yüksəklərdə olsun".

### Gənclərə gələcəklə bağlı xitab

Məmnunluq hissi ilə qeyd edə bilərik ki, ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq geniş əhatə dairəsinə malik gənclər siyasəti həyata keçirilir. Bunun da nəticəsi olaraq respublikamızda həm müasir, həm də ənənələrə, tariximizə, milli dəyərlərimizə bağlı olan gənclər formalaşıblar. Azərbaycan gəncləri təhsilli, geniş dünyagörüşlü olmaqla bərabər, həm də vətənpərvərdirlər. 44 günlük Vətən müharibəsi gənclərimiz üçün bir imtahan idi və onlar bu imtahandan alnıaçıq çıxdılar. Müharibədə cəmiyyətin bütün təbəqələrinin nümayəndələri iştirak edirdilər. Əsas ağırlıq isə Heydər Əliyev, İlham Əliyev dövründə formalaşan gənclərin üzərinə düşdü. Xatırlatmaq yerinə düşər ki, 44 gün ərzində Ermənistan ordusunda 11 min fərari qeydə alınıb. Azərbaycan Ordusunda isə heç bir dəfə də olsun fərarilik halına rast gəlinməyib ki, bu da gənclərimizin yüksək iradəyə malik olmalarının və vətənpərvərliyinin əyani göstəricisidir.

***Mübariz FEYİZLİ***

# Yeni transkontinental nizamda Bakının geostrateji əhəmiyyəti...



## Şuşa Qlobal Media Forumu Azərbaycanın orta güc statusunu bir daha təsdiqlədi

**XXI əsrin üçüncü onilliyi beynəlxalq münasibətlər sistemində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi xarakterizə olunur. Əgər əvvəlki dövrlərdə qlobal siyasi nizam əsasən sərt güc amilləri və geosiyasi bloklar arasında rəqabət üzərində qurulurdusa, bu gün tamamilə fərqli reallıq formalaşır. Hazırda siyasi təsirin əsas alətləri iqtisadi inteqrasiya, nəqliyyat-kommunikasiya marşrutları, enerji təhlükəsizliyi, rəqəmsal transformasiya və çoxtərəfli diplomatik platformalar təşkil edir. Dünyada müşahidə olunan yeni geosiyasi dinamika göstərir ki, qlobal güc mərkəzləri arasında rəqabət davam etsə də, bu rəqabətin idarə olunması üçün əməkdaşlıq mexanizmlərinə ehtiyac əvvəlki dövrlərlə müqayisədə daha da artıb. Məhz bu səbəbdən beynəlxalq münasibətlər sistemində “orta güc” statusuna malik dövlətlərin rolu əhəmiyyətli dərəcədə genişlənməkdədir.**

### Qütblərarası dialoqun təşviqi...

Sirr deyil ki, Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən kommunikasiya xətlərinin inkişafı artıq təkcə iqtisadi layihə deyil, eyni zamanda siyasi sabitliyin və beynəlxalq təhlükəsizliyin əsas elementlərindən birinə çevrilib. Son onillikdə dünyanın aparıcı güc mərkəzləri kimi ön plana çıxan ABŞ, Avropa İttifaqı və Çin qlobal təsir imkanlarını iqtisadi tərəfdaşlıqlar, investisiya layihələri, enerji əməkdaşlığı və nəqliyyat dəhlizləri vasitəsilə genişləndirməyə çalışırlar. Bu isə yeni beynəlxalq nizamın əsas sütunlarının geostrateji yol layihələri üzərində qurulduğunu göstərir.

Belə şəraitdə Avrasiyanın mərkəzində yerləşən Azərbaycan tamamilə yeni siyasi missiya qazanıb. Coğrafi mövqeyi, enerji ehtiyatları, müasir nəqliyyat infrastrukturu və balanslaşdırılmış xarici siyasət kursu ölkəni regional aktordan daha geniş miqyaslı geosiyasi oyunçuya çevirib. Azərbaycan artıq yalnız öz milli maraqlarını təmin edən dövlət deyil, həm də müxtəlif siyasi və iqtisadi qütblər arasında dialoqu təmin edən etibarlı tərəfdaş kimi qəbul olunur. Məhz bu xüsusiyyətlər Bakının beynəlxalq münasibətlər sistemində orta güc statusuna yüksəlməsini şərtləndirən əsas amillər sırasındadır.

### Azərbaycan üçün yeni inkişaf mərhələsi...

IV Şuşa Qlobal Media Forumu bir reallığı növbəti dəfə sübuta yetirdi - Bakı yalnız tranzit məkanı kimi deyil, eyni zamanda geosiyasi qərarların formalaşdığı, regional əməkdaşlığın təşviq edildiyi və müxtəlif maraqların uzlaşdırıldığı siyasi platformaya çevrilməkdədir. Bu mənada Azərbaycanın xarici siyasət modeli müstəqil qərarvermə, milli maraqların qorunması və eyni zamanda qlobal əməkdaşlığa açıq olmaq prinsiplərinin uğurlu sintezi kimi qiymətləndirilə bilər.

Məhz bu kontekstdə Şuşa Qlobal Media Forumu xüsusi əhəmiyyət daşıyır. Yeni transkontinental nizamın formalaşdığı indiki mərhələdə geostrateji yol layihələri, enerji təhlükəsizliyi, regional sabitlik və çoxtərəfli əməkdaşlıq anlayışları bir-birini tamamlayan vahid sistemə çevrilib. Bu sistemdə Azərbaycan həm coğrafi mövqeyi, həm siyasi çəkisi, həm də etibarlı tərəfdaş imici ilə fərqlənir. Məhz buna görə də Bakının beynəlxalq münasibətlərdə artan rolu bütövlükdə yeni qlobal düzənin mühüm elementlərindən biri kimi qiymətləndirilir. Şuşa Qlobal Media Forumu isə bu yeni geosiyasi reallığın, Azərbaycanın orta güc statusunun və transkontinental münasibətlər sistemində mərkəzi aktora çevrilməsinin ən mühüm siyasi göstəricilərindən biri kimi çıxış edir.

### Bakının orta güc statusu - meyarlar təsdiqlənir...

Yeni nizamda Azərbaycanın nümayiş etdirdiyi siyasi davranış modeli göstərir ki, ölkə artıq klassik regional lider çərçivəsini aşaraq orta güc dövlətlərinə xas olan funksiyaları yerinə yetirən aktora çevrilib. Başqa sözlə, Bakının geosiyasi mövqeyi bu gün yalnız Cənubi Qafqaz miqyasında deyil, bütövlükdə Avrasiya məkanında qiymətləndirilir. Orta güc statusunu müəyyənləşdirən meyarlar isə kompleks halda öz təsdiqini tapır:

- Müstəqil xarici siyasət kursu: geosiyasi bloklar arasında rəqabətin dərinləşdiyi şəraitdə Bakı hər hansı siyasi mərkəzdən asılı olmayan qərarvermə modelini tətbiq edir. Azərbaycan həm Qərb institutları ilə əməkdaşlığı inkişaf etdirir, həm Çin və Mərkəzi Asiya ilə iqtisadi inteqrasiyanı genişləndirir, həm də Türkiyə, Türk dünyası, İslam coğrafiyası və digər regional platformalarla əlaqələrini paralel şəkildə möhkəmləndirir. Bu çoxşaxəli diplomatik xətt Azərbaycanın xarici siyasətinin çevikliyini və milli maraqlar üzərində qurulduğunu nümayiş etdirir.

- beynəlxalq iqtisadi və enerji təhlükəsizliyinə verdiyi töhfə: Azərbaycan uzun illərdir ki, Avropanın enerji şaxələndirməsində mühüm rol oynayır. Eyni zamanda ölkənin təşəbbüsü ilə reallaşdırılan nəqliyyat və logistika layihələri Avrasiya məkanında iqtisadi əlaqələrin intensivləşməsinə xidmət edir. Şərq-Qərb, Şimal-Cənub və Orta Dəhliz kimi beynəlxalq marşrutların kəsişməsində yerləşən Azərbaycan müxtəlif regionlar arasında etibarlı tranzit körpüsü funksiyasını yerinə yetirir.

- regional sabitliyin qorunmasına verilən töhfə, regional məsuliyyət: yeni beynəlxalq münasibətlər sistemində lider dövlətlər eyni zamanda təhlükəsizlik mühitinin formalaşdırılmasına, əməkdaşlıq platformalarının genişləndirilməsinə və qarşılıqlı etimadın möhkəmləndirilməsinə məsuliyyət daşıyırlar. Azərbaycan son illərdə məhz bu funksiyanı yerinə yetirən dövlət kimi çıxış edir. Regionda yeni kommunikasiya xətlərinin açılması, iqtisadi inteqrasiyanın dərinləşdirilməsi və uzunmüddətli sabitliyin təmin olunması istiqamətində irəli sürülən təşəbbüslər Bakının məsuliyyətli siyasi aktor olduğunu nümayiş etdirir.

Şuşa Qlobal Media Forumunda verilən mesajlar və səsləndirilən suallar təsdiqləyir ki, Azərbaycan artıq beynəlxalq münasibətlər sistemində hadisələri yalnız izləyən deyil, onların istiqamətinə təsir göstərən ölkələr sırasındadır. Şuşa Qlobal Media Forumunun əhəmiyyətini artıran digər mühüm amil Prezident İlham Əliyevin burada səsləndirdiyi siyasi tezislərin qlobal auditoriyaya ünvanlanmasıdır. Forum vasitəsilə Azərbaycanın xarici siyasət prioritetləri, regional təhlükəsizlik baxışı, nəqliyyat və enerji strategiyası, eləcə də beynəlxalq əməkdaşlıq modeli birbaşa dünya ictimaiyyətinə təqdim olunur. Bu isə ölkənin kommunikasiya imkanlarının genişlənməsi ilə yanaşı, onun siyasi legitimliyini də gücləndirir. Beləliklə, Bakı artıq yalnız Cənubi Qafqazın siyasi mərkəzi kimi deyil, yeni transkontinental münasibətlər sistemində müxtəlif güc mərkəzlərini bir araya gətirən, dialoqu təşviq edən və geosiyasi sabitliyə töhfə verən orta güc aktoru kimi çıxış edir.

### Yeni əməkdaşlıq formatlarının müəllifi...

Azərbaycanın orta güc statusu qazanması yalnız coğrafi mövqe üstünlüyü ilə izah edilə bilməz - tarix göstərir ki, əlverişli coğrafiyaya malik olan bütün dövlətlər avtomatik olaraq geosiyasi gücə çevrilməyiblər. Əsas məsələ həmin coğrafiyanın siyasi kapitala çevrilməsidir. Bakı məhz bunu bacarıb. Son iyirmi ildə həyata keçirilən enerji layihələri, nəqliyyat infrastrukturu, müasir liman kompleksləri, dəmir yolu şəbəkələrinin yenilənməsi və rəqəmsal logistika imkanları Azərbaycanın Avrasiya xəritəsində tamamilə yeni funksional status qazanmasına səbəb olub. Müasir geoiqtisadi reallıq göstərir ki, dünya iqtisadiyyatının gələcək inkişafı məhz qitələrarası yük dövriyyəsinin sürətindən və təhlükəsizliyindən asılı olacaq. Bu şəraitdə Orta Dəhlizin strateji çəkisi nəzərəçarpacaq dərəcədə yüksəlib. Həmin marşrutun əsas əlaqələndirici həlqəsi isə Azərbaycandır. Bakı təkcə yüklərin keçdiyi məkan deyil, həm də müxtəlif dövlətlərin iqtisadi maraqlarını uzlaşdıran, logistika zəncirinin dayanıqlığını təmin edən və siyasi etimadı möhkəmləndirən koordinasiya mərkəzi funksiyasını yerinə yetirir.

Bu proses Azərbaycanın geosiyasi legitimliyini də möhkəmləndirib. Əgər əvvəlki dövrlərdə böyük güclər regional layihələrin əsas təşəbbüskarları hesab olunurdusa, indi orta güc statusuna malik dövlətlər yeni əməkdaşlıq formatlarının müəllifinə çevrilirlər. Azərbaycanın fərqi də məhz bundadır. Bakı artıq geosiyasi proseslərə yalnız reaksiya verən deyil, onları təşəbbüsləri ilə istiqamətləndirən aktor kimi çıxış edir. Son illərdə irəli sürülən nəqliyyat və enerji layihələri, regional iqtisadi əməkdaşlıq təşəbbüsləri və çoxtərəfli platformalar bunu aydın şəkildə nümayiş etdirir. Şuşa Qlobal Media Forumu həm də bu legitimliyin siyasi təsdiqinə çevrildi.

### Yeni münasibətlər sistemi, yeni davranışlar modeli...

Şuşa Qlobal Media Forumu həm də Azərbaycanın xarici siyasət prioritetlərinin beynəlxalq auditoriyaya təqdim olunduğu mühüm siyasi tribuna kimi çıxış etdi. Forum çərçivəsində Prezident İlham Əliyevin səsləndirdiyi mesajlar göstərdi ki, Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri artıq əvvəlki mərhələdən fərqli məzmuna malikdir. Söhbət yalnız enerji əməkdaşlığının genişlənməsindən və ya iqtisadi layihələrin inkişafından getmir. Əsas məsələ ondan ibarətdir ki, Bakı ilə Brüssel arasında münasibətlər getdikcə daha çox qarşılıqlı maraqlar, bərabərhüquqlu əməkdaşlıq və geosiyasi reallıqların qəbul edilməsi prinsipləri üzərində qurulur. Bu isə Azərbaycanın orta güc statusunun Avropa siyasi məkanında da qəbul olunmasının mühüm göstəricisidir.

Bir neçə ildir ki, Azərbaycan-Avropa İttifaqı münasibətlərində əsas prioritet enerji təhlükəsizliyi məsələsidir - yeni gündəm isə həm də qlobal iqtisadiyyatın transformasiyası, alternativ nəqliyyat marşrutlarına artan tələbat, Avropanın strateji təchizat zəncirlərini şaxələndirmək istəyi və Cənubi Qafqazın artan geosiyasi əhəmiyyəti fonunda tənzimlənir.

Şuşa Qlobal Media Forumunda səsləndirilən fikirlərdən biri də məhz bu məntiqi təsdiqləyirdi. Azərbaycan bir daha nümayiş etdirdi ki, beynəlxalq əməkdaşlığın əsas şərti qarşılıqlı hörmət, suverenliyə ehtiram və bərabərhüquqlu tərəfdaşlıqdır. Bakı illərdir vurğulayır ki, Avropa İttifaqı ilə münasibətlər yalnız birtərəfli gözləntilər üzərində deyil, qarşılıqlı maraqlar əsasında inkişaf etməlidir. Hazırkı geosiyasi reallıq göstərir ki, Brüssel də bu yanaşmanın alternativsiz olduğunu qəbul etməyə başlayıb. Bu qəbul isə Azərbaycanın artan siyasi çəkisinin və orta güc statusunun praktik nəticəsidir. Paralel olaraq bu qavrayış Azərbaycanın yerləşdiyi coğrafiyada sabitliyin qorunmasına, iqtisadi inteqrasiyanın genişlənməsinə və əməkdaşlıq platformalarının inkişafına da töhfə verməsi faktını təsdiqləyir. Beləliklə, Şuşa Qlobal Media Forumu Azərbaycanın yeni nizamda güc mərkəzləri ilə münasibətlərinin siyasi konturlarını da müəyyənləşdirdi. Burada verilən mesajlar göstərdi ki, Bakı gələcək əməkdaşlığı qarşılıqlı etimad, praqmatik yanaşma və geosiyasi reallıqların düzgün qiymətləndirilməsi üzərində qurmağa hazırdır.

### Yeni nizamın geostrateji atlasında əsas bağlayıcılarından biri...

Siyasi sabitləşdirici rolla yanaşı, Azərbaycan bu gün ən əlverişli iqtisadi bağlayıcı kimi də çıxış edir. Dünya iqtisadiyyatında baş verən dəyişikliklər göstərir ki, qlobal ticarətin gələcəyi təhlükəsiz, çevik və çoxşaxəli logistika marşrutlarından asılı olacaq. Pandemiya dövründə qlobal təchizat zəncirlərinin pozulması, müxtəlif regionlarda baş verən münaqişələr, dəniz nəqliyyatı ilə bağlı yaranan risklər və beynəlxalq ticarətdə artan qeyri-müəyyənlik alternativ quru marşrutlarının strateji əhəmiyyətini əhəmiyyətli dərəcədə artırıb. Məhz belə bir şəraitdə Orta Dəhliz Avrasiya məkanında ən perspektivli nəqliyyat arteriyalarından biri kimi ön plana çıxır. Bu marşrutun mərkəzində isə Azərbaycan dayanır.

Əslində, Orta Dəhliz artıq yalnız logistika layihəsi deyil. Bu marşrut Avrasiya geosiyasətinin yeni iqtisadi fəlsəfəsini formalaşdırır. Burada məqsəd yalnız malların daha qısa müddətdə daşınması deyil, eyni zamanda müxtəlif iqtisadi məkanlar arasında siyasi dialoqu gücləndirmək və əməkdaşlığın institusional əsaslarını möhkəmləndirməkdir. Azərbaycan isə bu sistemdə sadəcə tranzit ölkə deyil, müxtəlif maraqları uzlaşdıran əlaqələndirici və sabitləşdirici aktor kimi çıxış edir.

Eyni zamanda Orta Dəhlizin gələcək inkişafı Zəngəzur dəhlizinin reallaşması ilə daha geniş perspektiv qazanır. Bu marşrut Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməklə yanaşı, Türkiyə üzərindən Avropaya uzanan nəqliyyat xəttinin tam funksional işləməsini təmin edə bilər. Beləliklə, Çindən başlayan yük axını Mərkəzi Asiya, Xəzər, Azərbaycan və Türkiyə vasitəsilə Avropa bazarlarına daha sürətli və təhlükəsiz şəkildə çatdırıla bilər. Bu isə Bakını təkcə tranzit mərkəzi deyil, bütövlükdə Avrasiya iqtisadi məkanının əsas koordinasiya nöqtəsinə çevirir. Şuşa Qlobal Media Forumunda səsləndirilən bu mesajlar Azərbaycanın gələcək inkişaf strategiyasının əsas istiqamətlərini də ortaya qoydu. Beləliklə, XXI əsrin yeni geosiyasi atlasında Azərbaycan Çinlə Qərbi, Mərkəzi Asiya ilə Avropanı və Şimalla Cənubu birləşdirən yeni qlobal nizamın əsas bağlayıcı mərkəzlərindən birinə çevriləcək.

***Pərviz SADAYOĞLU***

# Çin Kommunist Partiyasının nümayəndə heyəti ölkəmizdə səfərdədir

















Yeni Azərbaycan Partiyasının (YAP) dəvəti ilə Çin Kommunist Partiyasının (ÇKP) nümayəndə heyəti ölkəmizə səfər edib.

Nümayəndə heyəti Fəxri Xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad edərək məzarı önünə əklil və gül dəstələri qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər Xiyabanı ziyarət edilib. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Nümayəndə heyəti YAP Yasamal rayon təşkilatında partiyanın Gənclər Birliyinin üzvləri ilə görüş keçirib. Tədbirdə YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov, partiyanın Gənclər Birliyinin sədri Bəxtiyar İslamov və ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamenti direktorunun müavini, nümayəndə heyətinin rəhbəri Kanq Şuay çıxış ediblər.

Çıxışlarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpinin iradəsi sayəsində iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi bildirilib. Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyasının geniş əlaqələrə malik olması xüsusi vurğulanaraq qarşılıqlı səfərlərin və təcrübə mübadiləsinin münasibətlərin gələcək inkişafı baxımından böyük önəm daşıdığı qeyd olunub. 2024-cü ilin noyabr ayında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılığı ilə nümayəndə heyətinin Çinə səfəri zamanı partiyalar arasında imzalanmış Əməkdaşlıq Memorandumunun əhəmiyyəti nəzərə çatdırılıb. Memorandumdan irəli gələrək müxtəlif sahələrdə, o cümlədən gənclər arasında əməkdaşlıq istiqamətində görülən işlərin partiyalar və ölkələr arasında tərəfdaşlığın gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıdığı qeyd olunub. Hər iki partiyanın gənc üzvlərinin gələcək layihə və təşəbbüslərdə fəal iştirak edərək əməkdaşlığın daha da dərinləşdirilməsinə mühüm töhfələr verəcəyinə inam ifadə olunub.

Daha sonra YAP Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyev və ÇKP Mərkəzi Komitəsinin Mərkəzi və dövlət orqanları ilə iş komitəsinin Siyasi tədqiqatlar departamentinin sektor müdiri Vu Min təqdimatlarla çıxış ediblər.

Çin Kommunist Partiyasının nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında da olub.

Əvvəlcə qonaqlar Akademiyanın nəzdində fəaliyyət göstərən Çin Dili və Mədəniyyəti Mərkəzinin və Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbinin fəaliyyəti ilə tanış olublar.

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, YAP Veteranlar Şurasının üzvü, akademik Urxan Ələkbərov "Dayanıqlı inkişaf və ekoloji sivilizasiya naminə innovativ dövlət idarəçiliyi texnologiyaları: Çin Xalq Respublikasının konsepsiyası və Azərbaycan Respublikasının təcrübəsi" mövzusunda təqdimatla çıxış edib.

Tədbirdə, həmçinin ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamenti direktorunun müavini Kanq Şuay və Milli Məclisin deputatı Aydın Mirzəzadə çıxış ediblər.

Çıxışlarda bildirilib ki, iki ölkə arasında konstruktiv siyasi dialoq şəraitində son zamanlar iqtisadi-ticari, nəqliyyat-logistika, təhsil, turizm, mədəni, humanitar və digər sahələrdə əlaqələr daha da genişlənib. Cari ilin may ayında YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində Dövlət İdarəçilik Akademiyası ilə ÇKP Mərkəzi Komitəsinin Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanmasının dövlət idarəçiliyi və kadr hazırlığı sahəsində təcrübə mübadiləsi baxımından önəmi vurğulanıb.

Nümayəndə heyəti Çinin Qlobal Təşəbbüslərinin, İnkişafının və Mədəniyyətinin Öyrənilməsi Mərkəzinin təşkilatçılığı ilə "Çin Kommunist Partiyasının 105 illik şanlı yolu: gənclərin baxışı ilə ÇKP-ni anlamaq" mövzusunda konfransa da qatılıb.

Qeyd edək ki, nümayəndə heyətinin İçərişəhərə, Dənizkənarı Milli Parkına, "Sea Breeze" istirahət mərkəzinə və Mərkəzi Nəbatət Bağına ziyarəti də təşkil olunub. ÇKP nümayəndələri, həmçinin Azərbaycan Dövlət Akademik Musiqili Teatrının "Operetta inciləri" konsert proqramında iştirak ediblər.

# Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlıq güclənir

**Azərbaycan ilə Özbəkistan arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 15-ci iclasında iştirak üçün bu ölkədə işgüzar səfərdə olan iqtisadiyyat naziri Mikayıl Cabbarovun görüşləri mühüm əlamətdar hadisələrlə yadda qalıb. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən qəbul edilən nazirə ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin mövcud dinamik vəziyyəti xatırladılıb. Özbəkistanın dövlət başçısı münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini, strateji tərəfdaşlığın daha da dərinləşdirilməsi üçün möhkəm zəmin formalaşdığını vurğulayıb. Tərəflər iki ölkə arasında iqtisadi əməkdaşlığın şaxələndirilməsi, qarşılıqlı ticarət və investisiya təşəbbüslərinin təşviqi, biznes əlaqələrinin gücləndirilməsi və digər istiqamətlər üzrə tərəfdaşlığın genişləndirilməsi barədə fikir mübadiləsi aparıblar.**

**Hər iki ölkə Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında yeni istehsal və dəyər zəncirlərinin formalaşdırılması, Orta Dəhliz çərçivəsində nəqliyyat-logistika əlaqələrinin inkişaf etdirilməsinin qarşılıqlı ticarətin və regional bağlantıların gücləndirilməsi üçün əlavə səylərin artırılması barədə ortaq qərara gəlib. İclasın yekununda Azərbaycan ilə Özbəkistan arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 15-ci iclasının Protokolu imzalanıb**

## Hökumətlərarası Komissiyanın 15-ci iclasında birgə müəssisənin yaradılmasına dair Şərtlər Toplusu imzalanıb

### “AzerGold” və “Uzbekgeologorazvedka”nın anlaşması

Hər iki ölkə Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında yeni istehsal və dəyər zəncirlərinin formalaşdırılması, Orta Dəhliz çərçivəsində nəqliyyat-logistika əlaqələrinin inkişaf etdirilməsinin qarşılıqlı ticarətin və regional bağlantıların gücləndirilməsi üçün əlavə səylərin artırılması barədə ortaq qərara gəlib. İclasın yekununda Azərbaycan ilə Özbəkistan arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 15-ci iclasının Protokolu imzalanıb. Sənəddə iki ölkə arasında müxtəlif istiqamətlər üzrə əməkdaşlığın daha da inkişaf etdirilməsi və əldə olunmuş razılaşmaların həyata keçirilməsi ilə bağlı məsələlər əksini tapıb.

Həmçinin “AzerGold” QSC, Özbəkistanın “Uzbekgeologorazvedka” SC şirkəti və Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin iştirakı ilə geoloji kəşfiyyat sahəsində üçtərəfli birgə müəssisənin yaradılmasına dair Şərtlər Toplusu imzalanıb. Birgə təşəbbüs Özbəkistan ərazisində perspektivli sahələrdə geoloji kəşfiyyat işlərinin aparılması və iqtisadi cəhətdən səmərəli investisiya layihələrinin hazırlanması istiqamətində tərəfdaşlığı nəzərdə tutur.

## İqtisadi-ticarət və investisiya əlaqələri dinamik inkişaf edir

İqtisadiyyat nazirinin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin Özbəkistanın müvafiq iqtisadi strukturları ilə görüşlərində də ikitərəfli əlaqələrin daha da artırılması barədə qarşılıqlı məsləhətləşmələr aparılıb. Azərbaycan ilə Özbəkistan arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 15-ci iclasında iqtisadiyyatın müxtəlif bölmələri barədə birgə əməkdaşlığın müasir vəziyyəti nəzərdən keçirilib. Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Laziz Kudratov bildirib ki, ikitərəfli iqtisadi münasibətlər son illərdə daha da inkişaf edib və və inkişaf perspektivləri üçün əlverişli imkanlar mövcuddur. Bu isə birgə istehsal və sənaye zəncirləri qurmaq üçün əlavə potensialları səfərbər etməyi vacib edir. Tədbirdə Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin birgə təşəbbüslərin maliyyələşdirilməsində rolu, sənaye kooperasiyasının inkişafı, geoloji kəşfiyyat və energetika sahələrində əməkdaşlıq qeyd olunub. Bildirilib ki, Azərbaycan və Özbəkistan arasında iqtisadi-ticarət və investisiya əlaqələri dinamik inkişaf edir. Qarşılıqlı ticarətin və ixrac imkanlarının genişləndirilməsi, strateji investisiya layihələrinin icrası istiqamətində görülən işlərin əhəmiyyəti vurğulanıb. Sənaye, energetika, tikinti, infrastruktur, kənd təsərrüfatı, avtomobil istehsalı, turizm və şəhərsalma, dağ-mədən və metallurgiya, nəqliyyat-logistika və xidmət sahələrində birgə layihələrin həyata keçirilməsi, işbirliyinin möhkəmləndirilməsi imkanları diqqətə çatdırılıb.



## Dağ-mədən və metallurgiya sənayesinin inkişafında birgə əməkdaşlıq



Qeyd edək ki, Azərbaycanda “Dağ-mədən və metallurgiya sənayesinin inkişafı: mövcud vəziyyət və 2030-cu ilə perspektivləri” barədə yeni Dövlət Proqramı hazırlanır. Proqram dağmədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, sənayeləşmənin dərinləşdirilməsi, ixracın strukturunun genişləndirilməsi və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsini nəzərdə tutur.

Ötən illərdə həyata keçirilən islahatlar nəticəsində alüminium, qızıl, gümüş və misin sənaye istehsalının əsasları formalaşdırılıb, metal filizi ehtiyatlarının bir hissəsi sənayedə istifadəyə yönəldilib. “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti vasitəsilə nəcib və əlvan metal yataqları üzrə sənaye hasilatı təşkil edilib, müasir emal infrastrukturu qurulub. Daşkəsən və Gədəbəy rayonlarında filiz emalı müəssisələrinin yenilənməsi, habelə işğaldan azad edilmiş ərazilərdə perspektivli yataqların istismara verilməsi dağ-mədən və metallurgiya sənayesinin istehsal və ixrac imkanlarını genişləndirib. Qərb Sənaye Parkının yaradılması dəmir filizi ehtiyatlarının emalını genişləndirməyə və metallurgiya sənayesində dəyər zəncirini dərinləşdirməyə imkan yaradır.

Hökumət mövcud mineral-xammal bazasından səmərəli istifadə, hasilat və emal mərhələləri arasında istehsal əlaqələrinin gücləndirilməsi, infrastruktur və logistika qərarlarının uzlaşdırılması, eləcə də dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi istiqamətində əlavə tədbirlər görülməsini zərur hesab edir. Qlobal iqtisadiyyatda gedən enerji keçidi və yüksək texnologiyaların inkişafı fonunda metallara tələbatın yüksəlməsi bu sahənin strateji əhəmiyyətini daha da artırır. Bu baxımdan Özbəkistanla dağmədən və metallurgiya sənayesinin inkişafı sahəsində birgə əməkdaşlıq həmin sənaye sektorunun inkişafını təşviq etməklə, sərmayə qoyuluşlarının artmasına, istehsalın genişlənməsinə səbəb olacaq.

*E. CƏFƏRLİ*

# Daşkəsəndə Aqroturizm və Aqrar Biznes Festivalı...



Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi və Daşkəsən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı, dövlət qurumları və tərəfdaşların dəstəyi ilə Daşkəsən rayonu Gənclərin Təlim və İstirahət Mərkəzində Aqroturizm və Aqrar Biznes Festivalı keçirilib.

Nazirlikdən verilən xəbərə görə, festivalın keçirilməsində əsas məqsəd aqrar sahədə fəaliyyət göstərən dövlət qurumları, özəl sektor nümayəndələri və fermerlər arasında əməkdaşlığın daha da gücləndirilməsi, kənd təsərrüfatı sahəsində innovativ yanaşmaların təşviqi, regionun aqroturizm potensialının tanıdılması və yerli istehsalçıların məhsullarının geniş auditoriyaya təqdim olunması olub.

Tədbir çərçivəsində nazirliyin tabeli qurumları, həmçinin aqrar sahədə fəaliyyət göstərən şirkətlər tərəfindən stendlər qurulub, müasir kənd təsərrüfatı texnologiyaları, məhsul və xidmətlər nümayiş etdirilib. Fermerlərə subsidiyalar, aqrar sığorta, güzəştli maliyyə alətləri və digər dövlət dəstəyi mexanizmləri barədə ətraflı məlumat verilib.

Festival çərçivəsində “Kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair Dövlət Proqramı”nın məqsəd və hədəflərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə proqramın əsas prioritetlərini əks etdirən təqdimat materialları stendlərdə nümayiş olunub. Eyni zamanda, Dövlət Proqramında nəzərdə tutulan prioritet istiqamətlər, aqrar sahənin inkişafı üzrə tədbirlər və dövlət dəstəyi mexanizmləri barədə festival iştirakçılarına ətraflı məlumatlar təqdim edilib.

# Yeni proqram...

## Azərbaycan kiçik ada dövlətlərinə dəstək verir




Azərbaycan UNESCO-da inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Dünya İrsi obyektlərinin mühafizəsi sahəsində potensialının gücləndirilməsi üzrə proqram təqdim edib və təşkilatın Afrika strategiyasının həyata keçirilməsini dəstəkləməyə hazır olduğunu təsdiqləyib.

Bu barədə Azərbaycanın UNESCO yanındakı daimi nümayəndəsi Elman Abdullayev Cənubi Koreyanın Busan şəhərində Dünya İrs Komitəsinin 48-ci sessiyasında milli bəyanatla çıxış edərkən bildirib.

Onun sözlərinə görə, “Azərbaycan-SIDS Dünya İrsi Potensialının Gücləndirilməsi” proqramı ada dövlətlərinin institusional potensialının gücləndirilməsini, mütəxəssislərin hazırlanmasını və obyektlərin gələcəkdə Ümumdünya İrsi Siyahısına daxil edilməsi üçün irəli sürülməsinə dəstək göstərilməsini nəzərdə tutur.

Azərbaycan, həmçinin, Afrika üçün Ümumdünya İrsi Strategiyasının və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə münasibətdə UNESCO strategiyasının həyata keçirilməsinə kömək etmək niyyətini təsdiqləyib.

E.Abdullayev öz çıxışında vurğulayıb ki, ölkə 1972-ci il Dünya Mədəni və Təbii İrsin Mühafizəsi haqqında Konvensiyanın yerinə yetirilməsinə sadiqdir və Ümumdünya İrsi Mərkəzi ilə əməkdaşlığı davam etdirəcək.

O qeyd edib ki, bu yaxınlarda qəbul edilmiş “Azərbaycan mədəniyyəti - 2040” konsepsiyası mədəni irsin idarə olunması sisteminin təkmilləşdirilməsi, irs obyektlərinin sənədləşdirilməsi, hüquqi mühafizəsinin gücləndirilməsi və tarixi abidələrin bərpası istiqamətində uzunmüddətli strateji çərçivə müəyyən edir.

Diplomatın sözlərinə görə, 30 illik işğaldan sonra azad edilmiş ölkə ərazilərinin bir hissəsində davam edən mina təhlükəsinə baxmayaraq, Azərbaycan mədəni irs obyektlərinin inventarlaşdırılmasını və sənədləşdirilməsini davam etdirir.

Bəyanatda həmçinin qeyd edilib ki, “Xınalıq xalqının mədəni landşaftı və Köç yolu transhumans marşrutu”na daxil olan Xınalıq kəndi 2025-ci ildə BMT-nin Ümumdünya Turizm Təşkilatı tərəfindən “Ən yaxşı turizm kəndləri” siyahısına daxil edilib.

E.Abdullayev xatırladıb ki, 2026-cı il Azərbaycanda “Şəhərsalma və memarlıq ili” elan edilib. Onun sözlərinə görə, iyulun 23-də Komitənin hazırkı sessiyası çərçivəsində Bakıda keçirilən XIII Ümumdünya Şəhərsalma Forumunda təqdim olunmuş SECURE (Sustainable and Empowering Cultural Revitalization) təşəbbüsünə həsr olunmuş tədbir keçiriləcək. Diplomat əlavə edib ki, layihə mədəni irsin qorunmasına, dayanıqlı inkişafa və zərər çəkmiş ərazilərin bərpasına kömək etmək məqsədi daşıyır.

Qeyd edək ki, UNESCO-nun Dünya İrs Komitəsinin 48-ci sessiyası Konvensiyaya tərəf olan dövlətlərin nümayəndə heyətlərinin iştirakı ilə Busanda keçirilir. Azərbaycan UNESCO yanında Daimi Nümayəndəliyi, UNESCO üzrə Milli Komissiya, Mədəniyyət Nazirliyi və Dövlət Turizm Agentliyinin nümayəndələrinin daxil olduğu heyətlə təmsil olunur.

# Fransanın yeni prezidenti kim olacaq?

**Fransada Makrondan sonrakı dönəmə hazırlıqlar başlayıb. Söhbət ölkədə gələn il keçiriləcək prezident seçkilərinə hazırlıqlardan gedir. Artıq növbəti prezident seçkilərinin vaxtı müəyyənləşib. Seçkilər 2027-ci il aprelin 18-də (birinci tur) və mayın 2-də (ikinci tur) keçiriləcək. Verilən məlumata görə, hakimiyyət səsvermənin aprelin 11 və 25-də keçirilməsini nəzərdə tutan alternativ variant əvəzinə, məhz bu qrafikə üstünlük verib. Xatırladaq ki, Fransa Konstitusiyasının 7-ci maddəsinə əsasən, prezident seçkiləri hazırkı dövlət başçısının səlahiyyətlərinin başa çatmasına 20 gündən 35 günə qədər qalmış müddətdə keçirilməlidir. Hazırkı prezident Emmanuel Makron 2022-ci il mayın 14-də ikinci beşillik müddətinə başlayıb, buna görə də onun səlahiyyətləri 2027-ci il mayın 13-də başa çatır. Konstitusiyaya görə, o, ardıcıl olaraq üçüncü müddətə namizədliyini irəli sürə bilməz. Beləliklə, budəfəki seçkilər Makronsuz keçəcək. Hələlik onun təmsil etdiyi mərkəzçi blok konkret bir namizədin təbliğatına başlamayıb. Hazırkı məqamda əsas favorit qismində isə ifrat sağçı, "Milli Birlik" Partiyasının lideri Marin Lö Pen çıxış edir.**

## Marin Lö Pen seçkilərə elektron qolbaqsız gedəcək

Məlumdur ki, son on ildə Fransada bütün səviyyələrdə baş tutan seçkilərdə əsas rəqabət mərkəzçi blokla ifrat sağçı "Milli Birlik" arasında gedib. Marin Lö Pen indiyədək seçkilərdə üç dəfə rəqabətə girsə də, seçkilər hər dəfə Makronun qələbəsi ilə yekunlaşıb və müxalifətin bu nəticələrə etiraz bildirməsi son qərarı dəyişməyib. Nəhayət, dördüncü cəhddə Makron Marin Lö Penin rəqibi qismində çıxış etməyəcək.

Artıq dördüncü cəhddə prezident seçkilərinə qatılacaq Marin Lö Penlə bağlı əsas məqamlardan biri də onun məhkəmə işi ətrafında yeni gəlişmədir. Xatırladaq ki, 2025-ci ilin yazında məhkəmə Marin Lö Peni partiyada çalışan işçilərin Avropa vəsaitləri ilə maaş aldığı bir sxem yaratmaqda təqsirkar sayıb. Daha sonra Marin Lö Penə seçkilərdə iştirak etməsinə beş il qadağa və dörd il həbs cəzası verilib. O, cəzasının qalan hissəsini elektron izləmə qolbağı altında çəkməli idi. Partiya lideri həmçinin 100.000 avro cərimə edilib.

Cari il iyul ayında verilən iki məhkəmə qərarı isə "Milli Birlik" Partiyasının lideri ilə bağlı vəziyyəti dəyişib. İyulun 7-də Paris Apellyasiya Məhkəməsi köməkçilərinə saxta ödənişlər etdiyinə görə həbs cəzası alan Marin Lö Penin məhkumluğunu qüvvədə saxlasa da, onun 2027-ci ildə keçiriləcək prezident seçkilərində namizədliyini irəli sürmək hüququnu tanıyıb. Həmçinin iyulun 15-də baş tutan məhkəmə iclasında Marin Lö Penin seçkilərdə iştirak hüququndan məhrumetmə cəzası ləğv edilib. Paris Apellyasiya Məhkəməsinin Baş Prokurorluğu "Milli Birlik" Partiyasının Avropa Parlamenti deputatlarının köməkçiləri ilə bağlı iş üzrə 7 iyul tarixli qərardan Kassasiya Məhkəməsinə müraciət etməyəcəyini açıqlayıb. Qurum bu qərarın məhkəmə hökmünün ətraflı hüquqi təhlilindən sonra qəbul edildiyini bildirib.

**Fransa vətəndaşlarının əksəriyyəti 2027-ci ilin prezident seçkilərində "Milli Birlik" parlament fraksiyasının lideri Marin Lö Peni dəstəkləməyə hazırdır. Bunu "Le Figaro" qəzeti və LCI televiziyasının sifarişi ilə Fransa İctimai Rəy İnstitutu (IFOP) tərəfindən aparılan sorğunun nəticələri göstərir**

Apellyasiya instansiyası Marin Lö Pen və partiyanın bir sıra rəhbər şəxslərini dövlət vəsaitlərinin mənimsənilməsində təqsirli bilsə də, məhkəmənin təyin etdiyi cəzalar prokurorluğun tələb etdiyindən xeyli yüngül olub. Prokurorluq Marin Lö Pen üçün beş il müddətinə seçkilərdə iştirak hüququndan məhrumetmə cəzası tələb etmişdi ki, bu da onun 2027-ci il prezident seçkilərində namizədliyini faktiki olaraq mümkünsüz edəcəkdi. Lakin məhkəmə seçilmək hüququnun və seçicilərin iradəsinin qorunmasını əsas gətirərək, bu qadağanı 15 aylıq müddətlə məhdudlaşdırıb və həmin müddətin artıq başa çatdığını nəzərə alıb.

Paris Apellyasiya Məhkəməsi yanında baş prokuror Mari-Süzan Lö Ko bildirib ki, "Milli Birlik" Partiyasının lideri Marin Lö Pen 2027-ci il prezident seçkiləri üzrə kampaniyasına elektron nəzarət qolbağı olmadan başlayacaq. Onun sözlərinə görə, Kassasiya Məhkəməsinə edilən şikayət apellyasiya instansiyasının hökmünün icrasını müvəqqəti dayandırır.

TF1 telekanalına müsahibəsində baş prokuror bildirib: "Kassasiya şikayəti verildiyi andan etibarən Apellyasiya Məhkəməsinin qərarını icra etməyəcəyəm. Buna görə də Marin Lö Pen seçki kampaniyasına elektron qolbaq olmadan başlayacaq".

Mari-Süzan Lö Ko əlavə edib ki, əgər Kassasiya Məhkəməsi 2027-ci il prezident seçkilərindən əvvəl qərar qəbul edərək hökmü qüvvədə saxlasa, Marin Lö Pen kampaniyanın son mərhələsində elektron qolbaq daşımalı ola bilər. Həmçinin o, prezident seçilsə və qərar bundan sonra çıxarılsa, dövlət başçısının toxunulmazlığı səbəbindən cəzanın icrası təxirə salınacaq.

Artıq Marin Lö Pen 2027-ci il prezident seçkilərində namizədliyini rəsmən təsdiqləyib. Bunun ardınca "Milli Birlik" Partiyasının lideri seçki kampaniyasının rəsmi internet səhifəsini istifadəyə verib və kampaniyasının şüarını ("Fransa üçün dirçəliş") təqdim edərək, prezidentlik yarışına start verdiyini elan edib. O, iyulun 8-də 2027-ci il prezident seçkiləri kampaniyası çərçivəsində ilk səfərini Sart departamentinin La Fleche şəhərinə edib.

**Bu gün Fransada seçkilər mövzusu gündəm olsa da, ölkə üçün əsas məsələ sosial-iqtisadi durumun getdikcə ağırlaşmasıdır. Bu isə o anlama gəlir ki, Yelisey Sarayının gələcək sahibini asan idarəçilik dönəmi gözləmir**

## Respondentlərin əksəriyyəti Lö Peni Fransanın növbəti prezidenti kimi görür

Fransa vətəndaşlarının əksəriyyəti 2027-ci ilin prezident seçkilərində "Milli Birlik" parlament fraksiyasının lideri Marin Lö Peni dəstəkləməyə hazırdır. Bunu "Le Figaro" qəzeti və LCI televiziyasının sifarişi ilə Fransa İctimai Rəy İnstitutu (IFOP) tərəfindən aparılan sorğunun nəticələri göstərir.

Sorğu 7-8 iyulda 18 yaşdan yuxarı 984 nəfər arasında aparılıb. Lö Penin əsas rəqibləri Fransanın iki keçmiş baş naziri olacaq: mərkəzçi "Renessans" Partiyasının lideri Qabriel Attal və prezident koalisiyasının bir hissəsi olan "Üfüqlər" Partiyasının rəhbəri Eduard Filip. Le Pen sorğuda səslərin 36 faizini toplayıb, respondentlərin 15 faizi Attala, 19 faizi isə Filipə səs verəcəklərini bildirib.

İkinci turda respondentlərin əksəriyyəti yenə də Lö Penə səs verməyi üstün sayıb: o, Filipə qarşı səslərin 54 faizini, Attala qarşı isə nəticəsi daha yaxşı - 55 faizi əldə edə bilər.

Daxili auditoriya ilə yanaşı, Marin Lö Penə beynəlxalq səviyyədə də böyük dəstək var. O cümlədən ABŞ Prezidenti D.Tramp Marin Lö Penlə bağlı məlum məhkəmə qərarına sərt reaksiya verərək buna görə Fransanı kəskin tənqid etmişdi. "Onun seçkilərdə iştirakına beş il müddətinə qadağa qoyulub, halbuki o, əsas namizəddir. Bu, bizim ölkədə baş verənlərə bənzəyir", - deyə Tramp sosial şəbəkə hesabında etdiyi paylaşımında bildirmişdi.



## İlon Maskın Marin Lö Penə dəstəyi - seçkilərə xarici müdaxilə ehtimalı gündəmdə

Amerikalı milyarder İlon Maskın 2027-ci ildə Fransada keçiriləcək prezident seçkilərində Marin Lö Penə açıq dəstək verməsi ölkədə geniş siyasi müzakirələrə səbəb olub. Verilən məlumata görə, bir sıra fransız siyasətçilər bu addımı demokratik proseslərə mümkün xarici müdaxilə kimi qiymətləndirirlər.

Mask özünə məxsus X sosial şəbəkəsində paylaşdığı mesajda Fransa Milli Assambleyasında "Milli Birlik" fraksiyasının sədri Marin Lö Peni "Fransanın son ümidi" adlandırıb. Bununla da o, ilk dəfə Lö Penin prezidentliyə namizədliyini açıq şəkildə dəstəklədiyini nümayiş etdirib.

Fransa hökuməti Maskın paylaşımına qısa müddətdə reaksiya verib. Xarici işlər naziri Jan-Noel Barro X platformasında yazıb: "Fransada belə bir deyim var: yalnız axmaqlar fikirlərini dəyişmirlər".

Fransanın solçu "Əyilməz Fransa" Partiyasından deputat Antuan Leoman isə Maskın mövqeyini prezident seçkilərinə yönəlmiş xarici müdaxilənin başlanğıcı adlandırıb. Onun sözlərinə görə, Audiovizual və Rəqəmsal Kommunikasiya üzrə Tənzimləmə Qurumu bu məsələ ilə bağlı araşdırma aparmalıdır.

Qeyd edək ki, X sosial şəbəkəsi Fransada artıq cinayət araşdırmasının predmetidir. Ölkədə iki ayrı şikayət əsasında aparılan istintaqda X platformasının alqoritmindən xarici müdaxilə məqsədilə istifadə edilə biləcəyi iddia olunur.

Bu vəziyyət həm də ötən ay SpaceX şirkətinin birja debütündən sonra dünyanın ilk trilyonçusu hesab edilən İlon Maskın, eyni zamanda, platformanın sahibi kimi siyasi təsir imkanları barədə müzakirələri gücləndirib. Maskın Fransa siyasətinə müdaxilə kimi qiymətləndirilən bu addımı onun Avropadakı millətçi və populist siyasi hərəkatlara verdiyi dəstəyin davamı hesab olunur. O, daha əvvəl Almaniyanın ifrat sağçı "Almaniya üçün Alternativ" (AfD) partiyasını dəstəkləyərək onu "Almaniyanı xilas edə biləcək yeganə siyasi qüvvə" adlandırmışdı.

Avropa İttifqının Marin Lö Penin namizədliyinə münasibəti də çox mühüm məsələdir. Fransa siyasi, iqtisadi və hərbi güc baxımından Avropa İttifaqının aparıcı dövlətlərindən biridir. Elə analitiklərin müzakirələrinin mövzularından biri də bu sual ətrafındadır: Brüssel seçkilərdə kimin tərəfində olacaq? Sualın cavabı olaraq bildirək ki, Avropa təsisatlarında Marin Lö Penə münasibətdə köklü dəyişikliklər izlənilir. Bir vaxtlar Brüssel "Lö Penin hakimiyyətə gəlməsinin qarşısını necə almaq olar?" sualına cavab axtarırdısa, hazırda Aİ-də müzakirələr fərqli istiqamətdə aparılır. Ümumi qənaət belədir ki, Aİ təsisatları artıq Marin Lö Penin qələbəsini iqnor etmirlər, eyni zamanda, digər nəticələri də qarşılamağa hazırdırlar.

## Getdikcə ağırlaşan sosial-iqtisadi durum

Bu gün Fransada seçkilər mövzusu gündəm olsa da, ölkə üçün əsas məsələ sosial-iqtisadi durumun getdikcə ağırlaşmasıdır. Bu isə o anlama gəlir ki, Yelisey Sarayının gələcək sahibini asan idarəçilik dönəmi gözləmir. Fransada bu ilin ikinci rübündə 17 min 486 şirkətin fəaliyyətini dayandırdığı qeydə alınıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 5,4 faiz artım deməkdir.

Bu barədə şirkətlər haqqında məlumatların təhlili üzrə ixtisaslaşmış "Altares" şirkətinin hesabatında məlumat verilib. Hesabata əsasən, ilin əvvəlindən bəri fəaliyyətini dayandıran müəssisələrin sayı 37 min 700-ə çatıb ki, bu da 2025-ci ilin ilk altı ayı ilə müqayisədə 1500 şirkət çoxdur. Ən çox zərər çəkənlər kiçik və yeni yaradılmış şirkətlərdir.

Ölkənin üzləşdiyi maliyyə çatışmazlığı digər bir ciddi problemdir. Hökumətin tapşırığı ilə hazırlanmış və ictimaiyyətə təqdim olunan yeni hesabat ölkənin dövlət maliyyəsi ilə bağlı ciddi xəbərdarlıq edir. Sənəddə bildirilir ki, mövcud iqtisadi və fiskal siyasət dəyişməz qalacağı təqdirdə, 2030-cu ildə büdcə kəsiri ÜDM-in 6,8 faizinə çatacaq.

Bu ssenarinin qarşısını almaq üçün isə Fransa 2032-ci ilə qədər əlavə 125 milyard avro maliyyə vəsaiti tapmalıdır. Amma necə və haradan? Hesabat müəlliflərinin proqnozuna görə, mövcud siyasət davam edərsə, dövlət xərcləri gəlirlərdən daha sürətlə artacaq və bu da artıq ÜDM-in 5,1 faizini təşkil edən büdcə kəsirini 2030-cu ildə 6,8 faizə yüksəldəcək.

Mütəxəssislər dövlət borcunun da əhəmiyyətli dərəcədə artacağını proqnozlaşdırırlar. Hesabata əsasən, borcun həcmi 2026-cı ildə ÜDM-in 118 faizindən 2030-cu ildə 130 faizinə yüksələcək. Bu isə son iyirmi ildə 34 faiz artım deməkdir. Beləliklə, dövlət borcu Fransanın təxminən 1,3 illik iqtisadi istehsalına bərabər olacaq.

Bu artımın əsas səbəblərindən biri dövlət borcuna xidmət xərclərinin yüksəlməsidir. Faiz ödənişlərinin 2030-cu ilə qədər hər il təxminən 10 milyard avro artacağı, ümumilikdə isə əlavə 46 milyard avroya çatacağı gözlənilir.

*Mübariz FEYİZLİ*

## Konqoda Ebola virusundan ölənlərin sayı 930-a çatıb



Konqoda Ebola virusu səbəbindən həyatını itirənlərin sayı 930 nəfərə çatıb.

AZƏRTAC Konqo Səhiyyə Nazirliyinə istinadla xəbər verir ki, indiyədək ölkədə virusa 2344 yoluxma halı təsdiqlənib. Son 24 saat ərzində daha 37 nəfərin ölümü qeydə alınıb ki, bu da bir gündə olan ən yüksək göstəricilərdən biridir.

Bildirilir ki, mayın 15-də Konqonun şərqində elan olunan Ebola epidemiyasının "Bundibugyo" ştamı daha sürətlə yayılır. Bu ştama qarşı hazırda təsdiqlənmiş peyvənd və ya xüsusi müalicə üsulu mövcud deyil.

## Kir Starmer Dauninq Stritdə son çıxışını edib

Böyük Britaniyanın Baş naziri Kir Starmer bu vəzifədə son çıxışını edib.

AZƏRTAC xəbər verir ki, Kir Starmer Baş nazir kimi xidmət etməyin onun üçün şərəfi olduğunu vurğulayıb. O, son iki ildə ölkənin iqtisadiyyatının gücləndiyini, dövlət xidmətlərinin yaxşılaşdığını, yoxsulluq içində yaşayan uşaqların sayının azaldığını qeyd edib.

"İşim tamamlandı", - deyən Baş nazir bildirib ki, vəzifədə olduğu müddətdə onu ən çox təsirləndirən məqam ölkəyə xidmət edən insanların, hərbçilərin, Milli Səhiyyə Xidmətinin əməkdaşlarının və yerli icmaların fədakarlığını yaxından görmək olub. Onun sözlərinə görə, Britaniyanın rəqibləri ölkəni dəyərlərinə görə parçalamağa çalışsalar da, belə bir dövrdə döblətin gücünü və birliyini qorumaq xüsusi əhəmiyyət daşıyır.

Kir Starmer çıxışında hökumət rəhbərliyini Leyboristlər Partiyasının yeni lideri Endi Börnhama təhvil verdiyini bildirərək ona uğurlar arzulayıb və tam dəstəyini ifadə edib.

Çıxışını başa vurduqdan sonra Kir Starmer Dauninq Stritdən ayrılaraq Bukinqem sarayına yollanıb. Böyük Britaniyanın Baş naziri Kir Starmer Bukinqem sarayında Kral III Çarlzla görüşərək vəzifəsindən istefasını rəsmən təqdim edib.Bununla da Kir Starmerin Baş nazir kimi səlahiyyətlərinə rəsmi şəkildə xitam verilib.



Bundan sonra Kral Leyboristlər Partiyasının yeni lideri Endi Börnhamı hökuməti formalaşdırmağa dəvət edəcək və Börnham rəsmi olaraq Böyük Britaniyanın yeni Baş naziri olacaq.

# Yaponiya 10-cu olacaqmı?

## Tokiodan nüvə silahı mesajı....

**Qlobal təhlükəsizlik mühitində baş verən dəyişikliklər nüvə silahı amilini yenidən beynəlxalq siyasətin əsas gündəmlərindən birinə çevirib. Böyük güclər arasında artan geosiyasi rəqabət, regional münaqişələrin genişlənməsi və strateji sabitliyin zəifləməsi fonunda nüvə silahlarının çəkindirmə vasitəsi kimi rolu haqqında müzakirələr xeyli intensivləşib. Xüsusilə, Avropada nüvə çətiri məsələsi yeni "trendə" çevrilib. Amma tendensiya yalnız Avropa ilə məhdudlaşmır - son otuz ildə ilk dəfə nüvə silahından istifadə ehtimalı və nüvə təhdidlərinə dair siyasi bəyanatlar fərqli coğrafiyaları əhatə edir. Bu tendensiya beynəlxalq təhlükəsizlik sisteminin gələcəyi ilə bağlı ciddi narahatlıqlar yaradır. Daha diqqətçəkən məqamlardan biri isə nüvə silahına qarşı ənənəvi mövqeyi ilə seçilən bəzi dövlətlərdə yanaşmanın dəyişməsidir. Tarixdə nüvə hücumuna məruz qalmış yeganə ölkə olan Yaponiyada belə təhlükəsizlik mühitinin dəyişməsi fonunda nüvə çəkindirməsinin gücləndirilməsi və hətta nüvə silahının əldə olunması ilə bağlı fikirlər zaman-zaman ictimai və siyasi müzakirələrin predmetinə çevrilir. Bu isə qlobal nüvə təhlükəsizliyi arxitekturasının yeni çağırışlarla üz-üzə qaldığını göstərir.**

### Yaponiya nüvə dövləti olacaq?

Belə ki, Yaponiyanın müdafiə naziri Şinyiro Koizumi bazar günü yerli mediaya bildirib ki, Avropanın bəzi ölkələrinin daha çox nüvə çəkindirmə səyləri göstərməsi fonunda Tokionun da nüvə silahları ilə bağlı müzakirəyə ehtiyacı var. Nazir Yaponiyanın bu məsələni gündəmə gətirməsini labüd hesab edir. Onun sözlərinə görə, ölkənin təhlükəsizlik mühiti daha da sərtləşib və Tokio əvvəllər arxa planda olan bəzi mövzuları müzakirə etmək məcburiyyətindədir. Koizumi Fransa və Finlandiyanın daha güclü nüvə çəkindirmə səylərinə istinad edib. O qeyd edib ki, Finlandiya parlamenti iyun ayında nüvə silahlarının ölkəyə gətirilməsinə icazə verən qanun layihəsini təsdiqləyib, Fransa prezidenti Emmanuel Makron isə mart ayında ölkəsinin nüvə başlıqlarının sayını artıracağını bildirib.



### 49 ildən sonra...

Qeyd edək ki, Yaponiya uzun illərdir ki, üç qeyri-nüvə prinsipinə (Three Non-Nuclear Principles) riayət edir. Həmin prinsiplərə əsasən:

- Nüvə silahına malik olmamaq (almamaq);
- Nüvə silahı hazırlamamaq;
- Nüvə silahının ölkə ərazisinə gətirilməsinə icazə verməmək.

Bu prinsiplər 1967-ci ildə Yaponiyanın Baş naziri Eisaku Sato tərəfindən irəli sürülüb. 1971-ci ildə isə Yaponiya "Milli Dieti" tərəfindən qəbul edilib. Bu prinsiplər Yaponiyanın nüvə silahlarına qarşı siyasətinin əsasını təşkil edir. Eisaku Sato məhz bu prinsiplərə görə 1974-cü ildə Nobel Sülh Mükafatını alıb. Tokio daha sonra Nüvə Silahlarının Yayılmaması Müqaviləsini imzalayıb.

İndiki halda Yaponiyanın bu prinsiplərdən imtinası üçün hər hansı bir prosedura ehtiyac duyulmur - qeyd etmək lazımdır ki, bu prinsiplər hüquqi baxımdan konstitusiya müddəası deyil, sadəcə, dövlət siyasətidir.

### 3 prinsipdən biri...

Bir maraqlı fakt isə, bu üç "nüvəsizlik prinsipi"nin bir bəndinin dolayısı ilə ənənə formalaşmamışdan öncə pozulmasıdır. Daha dəqiqi isə, Yaponiya müəyyən mənada ABŞ-ın nüvə çətiri altında öz təhlükəsizliyini illərdir ki, təmin edir. Bu isə o deməkdir ki, Yaponiya özü nüvə silahına malik olmasa da, müttəfiqi olan ABŞ-ın nüvə çəkindirmə siyasətindən faydalanır.

Yaponiya ABŞ-ın nüvə çətiri (nuclear umbrella) altında təhlükəsizliyini əsasən 1951-ci ildən etibarən təmin etməyə başlayıb. Bu, Yaponiya ilə ABŞ arasında imzalanmış Təhlükəsizlik Müqaviləsi ilə (San-Fransisko sülh müqaviləsi ilə eyni vaxtda) formalaşan hərbi ittifaqın nəticəsi idi.

Belə ki, 1951-ci ildə ABŞ və Yaponiya arasında ilkin təhlükəsizlik müqaviləsi imzalandı. Yaponiya öz müdafiəsi üçün ABŞ-ın hərbi imkanlarından faydalanmağa başladı. 1960-cı ildə yeni ABŞ-Yaponiya Təhlükəsizlik Müqaviləsi qüvvəyə mindi və iki ölkə arasında ittifaq daha da möhkəmləndi. ABŞ Yaponiyanın təhlükəsizliyinə təminat verdi, Yaponiya isə ABŞ qüvvələrinin ölkədə yerləşməsinə icazə verdi. Bu vaxtdan etibarən ABŞ-ın nüvə çəkindirmə imkanları Yaponiyanın təhlükəsizlik strategiyasının mühüm hissəsinə çevrildi. Xüsusilə Çin və Şimali Koreyanın nüvə proqramları fonunda bu mexanizm daha da nəzərəçarpan idi. Əslində 1967-ci ildə qəbul edilən üç qeyri-nüvə prinsipi ilə maraqlı Yaponiya modeli formalaşdı: öz nüvə silahından imtina etmək, lakin ABŞ-ın nüvə çəkindirmə imkanlarını saxlamaq. Bu yanaşma II Dünya müharibəsindən sonra Yaponiyanın müharibədən sonrakı təhlükəsizlik siyasətinin əsas sütunlarından biri hesab olunur.

### Mesaj, yoxsa hazırlıq mərhələsi?

Tokionun nüvə ilə bağlı bu "mesajı" ilk sayıla bilməz. Xarici medianın yaydığına görə, Baş nazir Sanae Takaiçi hökuməti ötən ilin dekabr ayında Yaponiyanın nüvə silahına sahib olmasının vacibliyini bildirib. Bu mövqe müxalifət partiyaları və bəzi ölkələr tərəfindən sərt reaksiyaya səbəb olub.

Yaponiyanın sabiq müdafiə naziri İtsunori Onodera da ötən ilin sonlarında bəyan etmişdi ki, ölkənin nüvə silahına malik olmamasına dair prinsipləri yenidən nəzərdən keçirmək lazımdır.

Bununla yanaşı, aprel ayında Çinin PLA Daily qəzeti Yaponiyanın müdafiə sənayesini təhlükəli şəkildə genişləndirdiyini və nüvə silahı istehsalı üçün "heyrətamiz" nüvə materialı ehtiyatı topladığını bildirib. Nəşrin məlumatına görə, 2024-cü ilin sonuna qədər Yaponiya 44,4 ton plutoniuma sahib idi - bu isə 5500 nüvə başlığı qurmaq üçün kifayətdir. Məqalədə nüvə silahı olmayan müdafiənin üç prinsipindən imtina edilərsə, Yaponiyanın ən qısa müddətdə faktiki olaraq nüvə dövlətinə çevrilə biləcəyi iddia edilirdi.

"Mainichi" qəzetinin məlumatına görə, Yaponiyanın baş naziri ötən ilin noyabr ayında hakim partiya daxilində üç prinsipdən imtina etmək imkanını müzakirə etmək niyyətində olub.

### Sıralar genişlənəcək?

Xatırladaq ki, hazırda dünyada nüvə silahına malik doqquz ölkə var - bunlar ABŞ, Rusiya, Çin, Birləşmiş Krallıq, Fransa, Hindistan, Pakistan, İsrail və Şimali Koreyadır. Stokholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunun (SİPRİ) analitiklərinin məlumatına görə, 2026-cı ilin yanvar ayı etibarilə dünyada 12.187 nüvə başlığı var idi ki, bu da 2025-ci ilin yanvar ayındakı saydan 54 ədəd azdır. Bunlardan 9745-i hərbi ehtiyatlardadır - yerləşdirilən döyüş başlıqları və əməliyyat yerləşdirmə qabiliyyətinə malik anbarlarda saxlanılır. Ballistik raketlərə yerləşdirilən 2100 ilə 2200 arasında döyüş başlığı isə yüksək əməliyyat hazırlığındadır.

Yaponiya nüvə silahına sahib olacağı təqdirdə siyahıda 10-cu ölkə olacaq...

***P.İSMAYILOV***

# Altı ölümün öldürdüyü tək adam

## Edqar Allan Ponun yaradıcılığı haqqında

**əvvəli ötən saylarımızda**

Çox keçmədən evdəki çöküş əhvalı təhkiyəçiyə də yoluxur - yatağına girsə də, saatlarla yata bilmir, səbəbsiz bir vahimə onun canına vəlvələ salır, dəhşətdən qanı donur. Özünü inandırmağa çalışır ki, ağlını qarışdıran fikirlər evin abhavasından, ya da yaxınlaşmaqda olan tufanın təsirindəndir. Küləyin susduğu məqamlarda o haradan gəldiyi anlaşılmayan boğuq səslər eşidir. Az sonra Roderik dəhşət içində onun otağına gəlir, məlum olur ki, onlar ledi Medileyni diri-diri basdırıblar, indi cəsəd qiyama qalxıb lənətlənmiş evi dolaşır. Bunun ardınca külək qapını yavaş-yavaş açır, qapının kandarında kəfənə bürünmüş ledi Medileyn görünür. Ağ kəfənin üstündəki qırmızı qan ləkələri amansız mübarizədən xəbər verir. Ağrıdan inildəyən bacısı səndələyib Roderikin üstünə yıxılır, onu da özü qarışıq yerə yıxır:

"Mən dəhşət içində əvvəl otaqdan, sonra isə evdən çıxdım. Tufan daha da şiddətlənmişdi, köhnə daş cığırı keçəndən sonra yolum qəfil işıqlandı. Bu gözqamaşdıran parlaqlığın səbəbini anlamadan dönüb geriyə baxdım, çünki arxada yalnız qaranlıq, tutqun duman içində üzən Aşerlər evi vardı. İşıq qan rəngli bədirlənmiş aydan düşürdü. Ayın ziyası malikanənin divarında güclə nəzərə çarpan, evin damından başlayıb gölə qədər uzanan çatı işıqlandırırdı. Çat durmadan böyüyürdü, qəfildən qasırğa da gücləndi, ayın işığı gözümü qamaşdırdı, başım gicəlləndi, sonra evin möhkəm divarlarının uçulub-dağıldığını gördüm. Sonda Aşerlər evinin dağıntıları gölün dərin, sakit sularına qarışdı".

Bununla da qədim, köklü Aşer nəslinin varlığına xitam verilir, silsilə sona çatır. Bir ailənin tənəzzülündən danışan bu məşhur novelladan Tomas Mannın "Buddenbroklar"ından tutmuş Markesin "Yüz ilin tənhalığı" romanına qədər dünya ədəbiyyatının bir sıra ailə dastanlarına gedən yollar açıq-aşkar görünür. Hələ onu demirəm ki, Markes Buendia ocağının sönməsindən, Buendia nəslinin çöküşündən bəhs eləyən şah əsərinin adını əvvəlcə "Ev" qoymaq istəyirmiş...

***

Görünür, Qoqol kimi Edqar Ponun da sağ ikən basdırılma qorxusu olub. "Diri-diri gömülənlər" (1844) adlı hekayəsində o bu mövzuya yenidən qayıdır. Təhkiyəçi katalepsiya (ölümə bənzər sinir tutmaları, ürəkgetmə) xəstəliyindən əziyyət çəkən biridir. Əvvəl-əvvəl o, letargiya yuxusuna dalmış adamların səhvən basdırılmasına dair bir neçə misal çəkir. Sonra da özünün başına gələni danışır.

Bir gecə o, qorxulu yuxudan ayılıb hər tərəfi zülmət qaranlıq görür. Qışqırmaq istəyəndə çənəsinin çəkilib bağlandığını hiss eləyir. Sinəsinin üstündə çarpazlanmış əllərini qaldıranda əli taxtaya toxunur. Bundan sonra tabutda uzandığına, məzara gömüldüyünə heç bir şübhəsi qalmır: "Tabutun qapağını qaldırmağa çalışdım, açılmadı. Zənglərin ipini axtardım, o da əlimə gəlmədi. Nəfəsimi çəkəndə xam torpağın qoxusunu duydum. Gəldiyim nəticə məni dəhşətə gətirdi: mən sərdabədə yox, adi qəbiristanlıqda dəfn olunmuşdum! Deməli, sinir tutması evdə, dostlarımın, doğmalarımın yanında yox, tanımadığım adamların arasında baş vermişdi. Bu, necə, nə vaxt olmuşdu, xatırlaya bilmirdim. Bir məsələ aydın idi ki, məni ölü bilib adi qəbiristanlıqda basdırıblar, daha doğrusu, yiyəsiz it kimi dərin bir quyuya gömüblər".

Əslində isə hekayənin qəhrəmanı tufandan qaçıb sığındığı bir yük gəmisində yatmış olur. Gəminin işçiləri onu silkələyib oyadanda təhkiyəçi bir müddət harada olduğunu anışdırammır. Çənəsindəki sarğı da öz əlinin işiymiş - papağı olmadığından yağışdan qorunmaq üçün cib dəsmalını başına bağlayıbmış: "Düzünə qalanda başıma gələn bu acı təəssürat diri-diri gömülən adamın çəkdiyi əzablardan geri qalmazdı. Həmin dəhşəti, ölüm qorxusunu eynən yaşadım. Amma necə deyərlər, hər ziyanda bir fayda var, Tanrı neylərsə, gözəl eylər. Keçirdiyim iztirabın hüdudsuzluğu ürəyimdə tab-tavan, fəlakətə qarşı müqavimət yaratdı. Ruhum möhkəmlənib dinclik tapdı. Xaricə getdim, idmanla məşğul oldum. Çölçəmənin təmiz, saf havasını ciyərlərimə çəkdim. Ölümü düşüncəmə yaxın qoymadım, gözəl şeylər haqda düşündüm. Xəstəliklərdən danışan tibbi kitabları bir kənara tulladım, gecə kabuslarına, ölülərə, məzarlıqlara dair yalan-gerçək əhvalatlarla dolu kitabları yandırdım. Bir sözlə, tamam başqa adama çevrilib həyatı yenidən yaşamağa başladım. Diri-diri gömülmək qorxusundan tədricən azad oldum. Bütün bunlarla yanaşı kataleptik tutmalarım, ürəkgetmələrim də keçib getdi. Çox güman, bu xəstəlik qorxumun səbəbi deyilmiş, əksinə, qorxuların törətdiyi nəticəymiş".

Hekayənin qəhrəmanı özünü kiçik dozalı ölümlə peyvəndləyir, çildağçı kimi qorxunu qorxuyla sağaldır, qəfil soyuq suya atılan uşaqtək bədənini ölümün "temperaturuna" uyğunlaşdırıb qara-qorxudan çıxır. Amma onun qurtuluşu mənəvi akt sayəsində, şəri yenmək hesabına yox, bioloji gimnastika, şərin, emosiyaların mənfi qütbündən müsbət qütbünə - ölüm qorxusundan yaşamaq ehtirasına doğru yerdəyişmə nəticəsində baş tutur, odur ki, qəhrəmanımızın əcəldən aldığı möhləti ölüm mələyinə qurbanlar verməyə sərf eləyəcəyinə əmin ola bilərik. Başqa sözlə, ona həyat həvəsini sevgi yox, qorxu verir, o, yaşamaq sevincini tanrıdan yox, şeytandan alır. Ölüm onun enerji generatoruna çevrilir, ölüm ona həyat verir.

***

Ayrı bir hekayəsi elə belə də adlanır: "Ölümdə həyat var" (1842). Hekayə sənətin dağıdıcı gücü haqdadır. Burada da təhkiyə birinci şəxsin dilindən aparılır. Quldurların əlindən qurtulmuş yorğun, yaralı yolçu kimsəsiz bir qəsrdə daldalanır. Burada o, gənc bir xanımın oval çərçivəyə salınmış olduqca canlı portretinə rast gəlir. Rəsmlərin şərh olunduğu kitabdan oxuyur ki, bu portret sənətinə mübtəla olmuş dahi bir rəssamın əl işidir. Rəssam cavan arvadının surətini yaratmağa necə aludə olubsa, qadının günü-gündən saralıb-solduğunu sezməyib. Beləcə, gənc xanımın ruhunu, gözəlliyini kətana köçürməklə rəssam bir yandan onu ölümə məhkum eləyib, o biri yandan da onun gəncliyini, surətini əbədiləşdirib.

Yaratdığı portretə heyran qalan sənətkar işinə yekun vuranda kəşf elədiyi həqiqəti həyəcanla dilə gətirir: "Bəli, həyat bax budur!" Sözün onun ağzından çıxmağıyla qadının yıxılıb canını tapşırmağı bir olur. Rəssamın fırçasına könül verməsi gerçək həyatı öldürür, necə deyərlər, incəsənət qurban istəyir. Belə çıxır ki, sənət də ölüm kimi həyatla rəqabətdədir, demək, onların təbiəti də birdir, sənət özü də ölümdən qidalanır. Bu biri yandan sənət həyatı üstələməyə çalışır, deməli, həm də həyatdan güc-qüdrət alır. Hər bir böyük sənət əsərində həyatla ölüm qəribə şəkildə çulğaşır, qol-boyun yatır. Yalnız ağlın pəncərəsindən ruhun gözüylə baxanda bunca paradoksal qovuşmanın məntiqini anlamaq olur.

Bu hekayə sənətlə həyatın konflikti kimi gözdən keçirilsə də, məncə, ona ruhla bədənin münaqişəsi kimi də baxa bilərik. Əgər bədən ruhun gücü hesabına ölümünə qovuşursa, bu, xoşbəxt ölümdür, faniliyə yox, əbədiyyətə qovuşmaqdır. Yox, proses tərsinə gedirsə, yəni bədən ruhu evindən qovmaqla əcəl durağına çatırsa, bu, cismin içindən çıxarıldığı, bəzək-düzək vurulub şəkilləndiyi heçliyə qayıdışı, cəhənnəmə vasil olmağıdır.

***

"Vilyam Vilson" (1839) adlı hekayədə söhbət belə bir qayıdışdan gedir. Bu hekayə də birinci şəxsin dilindən danışılır, ancaq bu dəfə təhkiyəçinin adını bilirik - onun adı əsərin başlığına çıxarılıb. Qədim, kübar bir nəslin törəməsi olan Vilyam gəncliyindən əslinə-kökünə yaraşmayan sapıq həyat keçirir. Hələ məktəbdə oxuduğu vaxt onların sinfinə Vilyama bənzər, onun adını-soyadını daşıyan, onunla eyni ildə, eyni gündə doğulmuş bir oğlan gəlir. Çox keçməmiş hamı onları əkiz qardaşlar bilir, halbuki oğlanların bir-birinə heç uzaq qohumluğu da çatmır. İki Vilson arasında dərhal bütün sahələr üzrə rəqabət yaranır - həm təhsildə, həm idmanda, həm də özünü başqalarına bəyəndirməkdə. Təhkiyəçi Vilyam adaşına nifrət bəslədiyini oxucudan gizlətmir, çünki rəqibi ondan daha istedadlı, daha vicdanlı, daha alicənab olur. Üstəlik, oxşarı onun geyim tərzini, davranışını, başqa maneralarını da mənimsəyib yamsılayır, onun hərəkətlərini daim nəzarətdə saxlayır, adaşına onun xoşuna gəlməyən haqlı məsləhətlər, tövsiyələr verir. Hətta əsas qəhrəmanın pıçıltıya bənzər alçaq səsini də rəqibi yamsılamaqla onun əleyhinə işlədir. Ona rahatlıq verməyən adaşından qisas almaq üçün bir gün qəhrəmanımız gizlicə onun yatdığı otağa girir, ancaq oğlanın hətta yuxuda da özünə bənzədiyini görüb eymənir, oxşarına xətər yetirməyə əlləri qalxmır.

Bundan sonra məktəbi buraxan təhkiyəçi Vilyam Oksfordda kolleсə qəbul olunur. Orada gənc tələbə avara, pozğun həyat sürür. Ancaq günün birində ayılır ki, oxşarı heç də nəzərini onun üstündən götürməyib, ən intim əxlaqsızlıq məqamlarında belə onun gözünə görünüb tez də qeybə çəkilir. Daha sonra qumara qurşanan təhkiyəçi zadəgana yaraşmayan üsullarla fırıldaq işlədib kurs yoldaşlarını soyur, ancaq iş başında tutulmadığından öz reputasiyasını da qoruyub saxlayır. Nəhayət, ortada böyük pulların dövr elədiyi qızğın qumar məclislərinin birində adaşı peyda olub onu ifşa eləyir. Bu rüsvaylıqdan sonra qəhrəmanımızın Oksfordu təcili tərk qılmaqdan savayı çarəsi qalmır. Cəlayi-vətən olan Vilson oxşarının gözündən yayınmaq üçün bütün Avropanı gəzib dolaşır, şəhərlər, ölkələr dəyişir, di gəl, harada olur olsun adaşı onu tapıb fırıldaqlarının üstünü açır.

Romada keçirilən karnaval günlərində qəhrəmanımız bir qoca hersoqun gənc, gözəl arvadını tovlamaq üçün maskarada qatılır. Qadına yaxınlaşdığı vaxt kimsə onun qolundan yapışıb tanış səslə qulağına pıçıldayır - bu, onunla eyni qiyafəyə bürünmüş ikinci Vilyam Vilsondur. Əsəbiləşən qəhrəman oxşarını duelə çağırır, o isə qətiyyən etiraz eləmir. Təkbətək döyüş uzun çəkmir, təhkiyəçi Vilson adaşını divara qısnayıb qılıncıyla neçə yerdən onun köksünü dəlir. Qanlı cismiylə üstünə yeriyən oxşarı Vilyama belə deyir: "Sən qalib gəldin, mən təslim oluram. Fəqət indən belə sən də ölüsən - dünya üçün, göylər üçün, ümid üçün yoxsan artıq! Mənimlə sən sağ idin, məni öldürməklə isə - üzümə bax, gör bu, sən deyilsənmi? - varlığını biryolluq puça çıxardın!"

Buna bənzər şəxsiyyət ikiləşməsini irəlidə Dostoyevskinin "Oxşar" povestində, Oskar Uayldın "Dorian Qreyin portreti" romanında, Borxesin "Borxes və mən" hekayəsində də görəcəyik. Hər cür bəd əmələ qadir Vilyam Vilsonun oxşarı onun mənəvi varlığı, onun ruhudur. Şeytani qanunlarla idarə olunan Vilyam Vilson namlı bədən ruhunu özündən qovmağa, tanrısından qaçmağa çalışır, anlamır ki, bununla yalnız özünə qəsd eləyir, hər şeydən çox qorxduğu ölümünə can atır; qanmır ki, ruhsuz bədən ölü bədəndir. Zatən şeytan şeytanlığını qansaydı, şeytan olmazdı. Tərsinə yeriyən şeytanın məntiqi, idrakı yoxdur, varsa da, tərs məntiqdir, tərsməzhəb idrakdır.

**davamı növbəti sayımızda**



***F.Uğurlu***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Qazaxdan Şuşaya uzanan söz bayramı...

**Xarıbülbülün ətri, Cıdır düzünün nəfəsi və Vaqif məqbərəsinin əzəməti fonunda keçirilən Vaqif Poeziya Günləri bu il də klassik ədəbi irslə müasir bədii düşüncə arasında körpü yaratdı. Üç gün ərzində ölkənin tanınmış şair və yazıçıları, elm və mədəniyyət xadimləri, gənc qələm sahibləri və poeziyasevərlər bir araya gələrək, Azərbaycan söz sənətinin ölməzliyini, Şuşanın milli-mənəvi yaddaşımızdakı müstəsna yerini bir daha nümayiş etdirdilər. Ənənə ilə müasirliyin qovuşduğu bu möhtəşəm ədəbi bayram təkcə poeziya sevgisinin deyil, həm də Qarabağın dirçəlişinin və mədəni həyatının canlı təcəssümünə çevrildi. 16-18 iyul tarixlərində müxtəlif ədəbi görüşlər, bədii qiraətlər, musiqi nömrələri və yaradıcı müzakirələr poeziya bayramını zəngin məzmunlu mədəni hadisəyə çevirdi. Möhtəşəm tədbir bir daha sübut etdi ki, Azərbaycan poeziyası zamanın sınağından uğurla çıxaraq, yeni nəsillərə ilham verməyə davam edir.**

## Vaqif Poeziya Günləri sözün zəfəri, ruhun dirçəlişidir

### Qazaxdan başlanan söz yolçuluğu...

Mədəniyyət Nazirliyi və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə tədbirin ilk günü iyulun 16-da “Sözün hekayəsi” şüarı ilə Molla Pənah Vaqifin doğulduğu Qazax rayonunda baş tutub. İştirakçılar əvvəlcə Qazax şəhərində Molla Pənah Vaqif və Molla Vəli Vidadinin abidələrini ziyarət edərək önünə gül dəstələri qoyublar, böyük söz ustadlarının xatirəsini ehtiramla yad ediblər. Qazax Ədəbiyyat Muzeyində təşkil olunan mərasimdə dövlət rəsmiləri, Azərbaycan Yazıçılar Birliyinin nümayəndələri, tanınmış şair və yazıçılar, aşıqlar, elm və mədəniyyət xadimləri iştirak ediblər. Çıxışlarda Vaqifin Azərbaycan ədəbiyyatındakı müstəsna yeri, onun poeziyasının müasir dövrdə də aktuallığını qoruması və bu ənənənin gələcək nəsillərə ötürülməsinin əhəmiyyəti vurğulanıb.

Tədbir iyulun 17-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada davam edib. Molla Pənah Vaqifin Muzey-Məqbərə Kompleksi önündə keçirilən rəsmi açılış mərasimi poeziya bayramının ən yaddaqalan məqamlarından biri olub. Tədbir Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin vəfatının 100-cü ildönümünə həsr edilib. Mərasimdə mədəniyyət naziri Adil Kərimli, Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, TÜRKSOY-un baş katibi Sultan Raev, Azərbaycan Yazıçılar Birliyinin nümayəndələri, eləcə də Türk dünyasının tanınmış şair və yazıçıları iştirak ediblər.

Bundan başqa, Şuşadakı

### Poeziya Şuşada yeni nəfəs qazandı

Mehmandarovların malikanə kompleksində böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinə həsr olunan elmi konfrans keçirilib.

Eyni zamanda poeziya günləri çərçivəsində “Sözün həsrəti-Heydərbabaya salam” adlı bədii-musiqili kompozisiya nümayiş olunub. Mədəniyyət Nazirliyindən bildirilib ki, görkəmli Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 120 illik yubileyinə həsr edilən kompozisiya Xan qızı Natəvanın evinin qarşısında nümayiş etdirilib.







### İlk açıq hava kitabxanası istifadəyə verilib

Tədbir çərçivəsində Mədəniyyət Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, “Azercell Telekom” MMC və “Aztelekom” MMC-nin tərəfdaşlığı ilə Şuşanın mərkəzində “Kitab dayanacağı” - ilk açıq hava kitabxanası istifadəyə verilib. Mədəniyyət Nazirliyindən bildirilib ki, layihənin məqsədi mədəniyyət paytaxtımız Şuşanın tarixi və ədəbi mühitinin təbliği, eləcə də şəhər sakinləri və qonaqları üçün mütaliə imkanlarının genişləndirilməsidir. Çıxışlarda bildirilib ki, açıq hava kitabxanası konsepsiyasında yaradılan layihə - “Kitab dayanacağı” 24 saat fəaliyyət göstərəcək. Şuşa sakinləri və şəhərin qonaqları burada təqdim olunan kitablardan sərbəst şəkildə istifadə edə biləcəklər.

### Milli musiqi və rəqslərlə möhtəşəm bağlanış...

Vaqif Poeziya Günləri Şuşada “Sözün Zəfəri - Zəfərin sədası” adlı konsert proqramı ilə başa çatıb. Mədəniyyət Nazirliyindən bildirilib ki, Xurşidbanu Natəvanın evinin qarşısında təşkil olunan konsertdə Rauf Hacıyev, Cahangir Cahangirov, Vasif Adıgözəlov, Elza İbrahimova, Ələkbər Tağıyev, Oqtay Kazımi və başqa bəstəkarların əsərləri səsləndirilib. Proqramda eyni zamanda xalq mahnıları ifa olunub, Azərbaycan Dövlət Rəqs Ansamblı tərəfindən milli rəqslərimiz təqdim edilib.

Vaqif Poeziya Günləri bir daha göstərdi ki, Molla Pənah Vaqif irsi zamanın sınağından çıxaraq bu gün də Azərbaycan ədəbiyyatının əsas mənəvi dayaqlarından biri olaraq yaşayır. Qazaxdan başlanan, Şuşada zirvəyə çatan poeziya bayramı söz sənətinin sərhəd tanımadığını, milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından bu cür tədbirlərin əhəmiyyətini bir daha nümayiş etdirdi. Ədəbiyyatın, musiqinin və mədəniyyətin vəhdətində keçirilən Vaqif Poeziya Günləri bu il də poeziyasevərlərə unudulmaz anlar yaşatdı, Azərbaycanın zəngin söz sənətinin yaşadılmasına növbəti mühüm töhfəsini verdi.

### Gənc şairlər mükafatlandırıldı

Bundan başqa, Vaqif Poeziya Günləri çərçivəsində iyulun 17-də Ağdam Muğam Mərkəzində TÜRKSOY-un tərəfdaşlığı ilə “Sözün sabahı - Türk dünyasının gənc şairlər festivalı” keçirilib. Ağdam Muğam Mərkəzində gənc qələm sahiblərinin mükafatlandırılması tədbirin mühüm məqamlarından biri kimi yadda qalıb.

*Yeganə BAYRAMOVA*

# Kreditlə istirahət

## Səyahət kreditlərinin üstünlükləri və riskləri...

**Son illər insanların istirahət və turizm planlarını reallaşdırmaq üçün istifadə etdiyi maliyyə alətlərindən biri səyahət kreditləridir. Xüsusilə, yay mövsümünün gəlişi ilə birlikdə ölkə daxilində və xaricdə istirahət etmək istəyənlərin sayının artması bank sektorunda da yeni maliyyə məhsullarına tələbat yaradıb. Səyahət krediti ayrıca hüquqi kredit növü olmasa da, bir çox bank tərəfindən istehlak krediti və turizm şirkətləri ilə əməkdaşlıq çərçivəsində təqdim edilən maliyyə həlli kimi müştərilərə təklif olunur. Bu imkan sayəsində vətəndaşlar aviabiletlərin alınması, otel xərclərinin ödənilməsi, turpaketlərin əldə edilməsi, viza, sığorta və digər səyahət xərclərini hissə-hissə ödəmək imkanı qazanırlar.**



### Fürsətlə risk arasında incə xətt

İqtisadçı Fuad İbrahimovun “Yeni Azərbaycan”a açıqlamasına görə, səyahət kreditlərinin əsas üstünlüklərindən biri ondan ibarətdir ki, insanlar xüsusilə mövsümi endirimlər, erkən rezervasiya kampaniyaları və sərfəli tur paketləri təqdim olunan dövrlərdə maliyyə çatışmazlığı səbəbindən bu imkanlardan imtina etmək məcburiyyətində qalmırlar: “Lakin unutmaq olmaz ki, hər bir kredit öhdəlik deməkdir. Səyahət krediti götürməzdən əvvəl aylıq gəlirlər, ödəniş qabiliyyəti, faiz dərəcələri, kreditin ümumi dəyəri, komissiyalar və geri ödəmə müddəti diqqətlə hesablanmalıdır, çünki istirahətdən əldə olunan xoş təəssüratlar sonradan uzunmüddətli maliyyə çətinlikləri ilə əvəzlənməməli, qəbul edilən qərar ailə büdcəsinə uyğun şəkildə verilməlidir”.

### Bu səhvləri etməyin...

Ekspert qeyd edib ki, səyahət kreditindən istifadə edərkən emosional qərarlardan uzaq durmaq, yalnız reklam kampaniyalarına əsaslanmamaq, müxtəlif bankların təkliflərini müqayisə etmək, kredit müqaviləsinin bütün şərtlərini diqqətlə oxumaq və ödəniş cədvəlini əvvəlcədən qiymətləndirmək olduqca vacibdir: “Çünki kiçik görünən faiz fərqləri və əlavə xidmət haqları uzunmüddətli perspektivdə kreditin ümumi məbləğinin əhəmiyyətli dərəcədə artmasına səbəb ola bilər. Bu gün səyahət kreditləri yalnız xarici ölkələrə istirahət etmək istəyənlər üçün deyil, Azərbaycanın turizm potensialından yararlanmaq, bölgələrdə yerləşən istirahət mərkəzlərinə, sanatoriyalara və kurort zonalarına səfər planlaşdıran insanlar üçün də əlverişli maliyyə aləti hesab olunur. Ölkə daxilində də turizm xidmətlərinin keyfiyyətinin yüksəlməsi və müxtəlif istirahət paketlərinin təqdim olunması bu istiqamətdə marağı artırır.

Nəticə etibarilə, səyahət krediti düzgün planlaşdırıldığı və maliyyə imkanlarına uyğun şəkildə seçildiyi təqdirdə insanların arzularını daha tez reallaşdırmasına kömək edən faydalı maliyyə mexanizmlərindən biri kimi qiymətləndirilə bilər. Ancaq unudulmamalıdır ki, ən uğurlu səyahət yalnız gözəl mənzərələr, maraqlı xatirələr və yeni təcrübələrlə deyil, eyni zamanda qayıdışdan sonra maliyyə sabitliyinin qorunması ilə tamamlanır. Məhz buna görə də hər bir kredit qərarı məsuliyyətli yanaşma əsasında verilməlidir”.

İqtisadçı bildirib ki, Azərbaycanda fəaliyyət göstərən bir sıra banklar təqdim etdikləri istehlak kreditləri və tərəfdaşlıq proqramları vasitəsilə səyahət məqsədli maliyyələşdirmə imkanı yaradır: “Son illər banklarla turizm şirkətləri arasında əməkdaşlığın genişlənməsi nəticəsində bəzi hallarda müştərilərə xüsusi kampaniyalar, faiz endirimləri, komissiyasız hissəli ödəniş imkanları təqdim edilir. Eyni zamanda bəzi bank kartları vasitəsilə əldə olunan keşbek, mil proqramları və səyahət sığortası kimi əlavə xidmətlər də ümumi xərclərin optimallaşdırılmasına kömək edir”.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4490
Sifariş: 931
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova